HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 05 (899) ▪ 7 fevral 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycan dövlətinin əsas məqsədi vətəndaşların sosial müdafiəsini təmin etməkdir

**Prezident İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib.**



Dövlətimizin başçısı bildirib ki, beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqları ilə Azərbaycan həmkarlar ittifaqları arasında sıx qarşılıqlı fəaliyyət, həmrəylik mövcuddur. Bu qurultay da müəyyən işin nəticəsidir, görülən və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparmaq imkanıdır. Prezident İlham Əliyev bu sahədə qarşıda duran məsələlərin hamı üçün eyni olduğunu bildirərək əminliyini ifadə edib ki, qurultayda müzakirə olunacaq məsələlər və qəbul ediləcək qərarlar ölkəmizin uğurlu inkişafına öz töhfəsini verəcək.

Hər bir cəmiyyətdə, o cümlədən Azərbaycanda da həmkarlar ittifaqının rolunun artdığını diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, respublikamızda vətəndaşların sosial cəhətdən müdafiə olunması üçün hər cür şərait yaradılır: «Bu, son 15 ildə 5 dəfədən çox artırılan əməkhaqqında və əmək şəraitində də özünü göstərir. Əlbəttə ki, daimi nəzarət və həllini tələb edən məsələlər də diqqət mərkəzindədir. Bu, ilk növbədə, məşğulluqla əlaqədardır». Azərbaycanda son illərdə işsizliyin səviyyəsinin əhəmiyyətli dərəcədə azalaraq cəmi 5 faiz təşkil etdiyini vurğulayan dövlətimizin başçısı bunu böyük nailiyyət kimi qiymətləndirib: «Təxminən son 15 il ərzində əhalinin sayı 1 milyon yarım nəfər artıb, 1 milyon 400 min isə daimi iş yeri yaradılıb. Buna görə də belə müsbət demoqrafik dinamika, əlbəttə ki, bizi həmişə işsizliyin daim aşağı səviyyədə olması üçün yeni iş yerlərinin yaradılması istiqamətində fəal işləməyə məcbur edir».

Prezident İlham Əliyev vurğulayıb ki, bu qədər iş yerinin yaradılması dövlətin əldə etdiyi ən böyük nailiyyətlərdən biridir: «Elmi-texniki tərəqqini, avtomatlaşdırmanı, yeni texnologiyaların inkişafını nəzərə alaraq, indi qarşıda yenidən ixtisaslaşma vəzifəsi durur. Bu gün biz bunun üzərində işləyirik. Eləcə də düşünürəm ki, qeyri-leqal məşğulluqla bağlı məsələ ətrafında fikir mübadiləsi aparmaq faydalı olardı. Azərbaycanda işlə məşğul olanların hamısını qeydiyyata götürmək üçün həm inzibati, həm də sistem xarakterli tədbirlər görülür. Əlbəttə, bununla paralel olaraq əməyin ödənilməsinin ölçüləri barədə dəqiq nəzarət və hesabatlılıq da diqqət mərkəzindədir».

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, yalnız həmkarlar ittifaqının qüvvəsi ilə bunları həll etmək mümkün deyil. Burada həm nəzarət, həm də fiskal, vergi, sosial müdafiə və əmək orqanları birgə işləməlidir. Prezident İlham Əliyev qurultayda aparılacaq fikir mübadiləsinin faydalı olacağına əminliyini bildirib və uğurlar arzulayıb.

Qonaqlar adından çıxış edən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Felisio dünyada gedən mürəkkəb proseslər fonunda həmkarlar təşkilatlarının iş yerləri ilə bağlı fəaliyyətinin əhəmiyyətindən danışıb və bəzi ölkələrdə həmkarlar ittifaqlarının üzvlərinin sayının azalmasının narahatlıq doğurduğunu qeyd edib, zəhmətkeşlərin hüquqlarının müdafiə olunmasının həmişəki kimi rəhbərlik etdiyi qurumun qarşısında duran əsas vəzifələrdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, digər mühüm məsələlərdən biri də öz həllini tələb edən miqrant problemdir. Qonaq xüsusilə vurğulayıb ki, dünyada baş verən münaqişələr insanların, xüsusilə aztəminatlı təbəqələrin rifah halına çox mənfi təsir edir.

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının və Rusiya Müstəqil Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakov isə Azərbaycanda ali dövlət orqanları ilə həmkarlar ittifaqı təşkilatları arasında mövcud olan səmərəli qarşılıqlı fəaliyyətin önəmini vurğulayaraq, bunun ölkədə ictimai-siyasi sabitliyin təmin olunması işinə böyük töhfə verdiyini qeyd edib, əldə olunan nailiyyətlərin bir çox ölkələrə nümunə olduğunu bildirib. Hazırda bütün dövlətlərin qarşısında ümumi problemlərin dayandığını deyən qonaq bunlardan birinin də qeyri-formal və qanunsuz məşğulluq olduğunu qeyd edib: «Qanunsuz məşğulluq bizə ziyan vurur və iqtisadiyyatı daha səmərəli inkişaf etdirməyə imkan vermir. Ona görə də həmin məsələdə biz eyni mövqedən çıxış edirik. Biz çalışmalıyıq ki, dövlətin qanunlarına riayət edilsin, insanlar sosial sistem tərəfindən müdafiə olunsun, digər tərəfdən isə hər kəs bu sosial sistemə öz töhfəsini versin ki, özü də müdafiə edilə bilsin. Buna görə də Azərbaycan təcrübəsi bir nümunədir. Biz bundan sonra da hökumətinizlə və həmkarlar ittifaqınızla əməkdaşlığı davam etdirəcəyik».

Azərbaycanda görülən işlərə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan dövlətinin əsas məqsədi vətəndaşların həyatını daha da yaxşılaşdırmaqdır. Bildirib ki, ölkəmizdə müsbət demoqrafik dinamika nəzərə alınmaqla yeni iş yerlərinin yaradılması istiqamətində səmərəli iş aparılır: «Azərbaycanda son 15 ildə əhalinin sayı 1 milyon yarım artıb və bu artım meyli hələ də davam edir. Bu da öz növbəsində inkişaf etməkdə olan iqtisadiyyatın göstəricisidir. Son 15 il ərzində bizim iqtisadiyyatımız, ümumi daxili məhsul 3,2 dəfə artıb. Hazırda Davos Dünya İqtisadi Forumunun son qiymətləndirməsinə görə, Azərbaycan rəqabətqabiliyyətlilik cəhətdən dünyada 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə, - orada 80-dək inkişaf etməkdə olan ölkə var, - 3-cü yerdədir. Bu, bizim ölkəmizin potensialını nümayiş etdirir».

Prezident İlham Əliyev bildirib ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənə bilmərik. Çünki dünyada vəziyyət dəyişir. Qeyri-sabitlik, müharibələr, münaqişələr, qaçqınlar, miqrasiya - bunlar insanlar üçün və bütün bəşəriyyət üçün böyük bəlalardır: «Azərbaycan bu problemlə iyirmi ildən artıq müddətdə Ermənistan tərəfindən işğala və etnik təmizləməyə məruz qaldığı dövrdə üzləşib. Bu işğal nəticəsində bir milyona yaxın azərbaycanlı öz doğma torpağında qaçqına və məcburi köçkünə çevrildi... Bu kateqoriyadan olan insanlar arasında yoxsulluq, işsizlik səviyyəsi çox yüksək idi. Biz bunu xeyli azalda bildik. Onları layiqli işlə, mənzillərlə təmin etdik. 265 min nəfər dövlət hesabına mənzillə təmin olundu. Bu proses indi də davam edir».

Sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev rəhbərlik etdiyi qurumun yaranmasının 25 illiyi münasibətilə medalın təsis olunduğunu bildirib və İcraiyyə Komitəsinin qərarı ilə həmkarlar təşkilatlarının fəaliyyətinin inkişafına verdiyi dəstəyə görə ilk medalı Prezident İlham Əliyevə təqdim edib.

## Dünya Bankı Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirir



Prezident İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul edib. M.Tembon Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş uğurlu islahatlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırıb, bütün bu müsbət proseslərdə təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlığından məmnunluq hissi keçirdiyini bildirib. O, Azərbaycanda əldə olunan bu nailiyyətlərdən insanların faydalandığının şahidi olduqlarını qeyd edib. Bildirib ki, iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi və iqtisadi inkişafın əldə olunması əhalinin rifah halını yaxşılaşdırır.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadi inkişafın yaxşı nəticələr verdiyini və özünü həm makroiqtisadi sahədə, həm real sektorun və eyni zamanda, qeyri-neft sektorunun inkişafında göstərdiyini bildirib. Qeyd edib ki, ötən il ölkəmizdə 177 min daimi iş yeri yaradılıb ki, bu da rekord göstərici olub. Qeyri-neft sektorunda 3 faizə yaxın artımın olduğunu deyən dövlətimizin başçısı ölkəmizdə nəhəng infrastruktur layihələrinin uğurla həyata keçirildiyini bildirib. Azərbaycanın iqtisadi inkişafının Davos İqtisadi Forumunun hesabatlarında da öz əksini tapdığını qeyd edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yeri, inkişaf etməkdə olan ölkələr sırasında inklüziv inkişaf indeksinə görə isə 3-cü yeri tutmasını məmnunluqla vurğulayıb.

## İkitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir

Prezident İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib, bu səfərin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd edib.

Bricet Brink ABŞ rəhbərliyinin «Cənub Qaz Dəhlizi» layihəsinə dəstək verdiyini vurğulayıb. O, ABŞ-ın ölkəmizin təhlükəsizlik sahəsində əməkdaşlığa, o cümlədən Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirib. Görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib, bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun Avropa ilə Asiya arasında yeni nəqliyyat marşrutu olması baxımından önəmi vurğulanıb, ABŞ şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti, ticarət dövriyyəsinin artırılması və ixrac imkanlarının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxunulub, Bakıda Minsk qrupunun həmsədrləri ilə görüşdə münaqişənin həlli ilə bağlı geniş müzakirələrin aparılacağı bildirilib. Söhbət zamanı demokratik inkişaf, qanunun aliliyinin təmin edilməsi, insan haqlarının qorunması məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

## Türkiyə və Azərbaycan daim bir-birinin yanındadır

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Ölkələrimizin sosial müdafiə sahəsində iş birliyinin razılıq doğurduğunu deyən dövlətimizin başçısı bu sahədə təcrübə mübadiləsinin, birgə proqramların həyata keçirilməsinin zəruriliyini qeyd edib, dostluq və qardaşlıq əlaqələrinin çox uğurla inkişaf etdiyini vurğulayıb, ölkələrimizin daim bir-birinin yanında olduğunu və bir-birini dəstəklədiyini, münasibətlərimizin dünya miqyasında nümunəvi xarakter daşıdığını məmnunluqla qeyd edib, bu səfərin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Xanım Jülide Sarıeroğlu bu vəzifədə fəaliyyətə başladıqdan sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu bildirib. Nazir Türkiyə ilə Azərbaycanın bütün sahələrdə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq sosial müdafiə sahəsində də əlaqələrimizin dərinləşdirilməsinin vacibliyini qeyd edib.

## «Smart Africa» birgə əməkdaşlıqda maraqlıdır

Prezident İlham Əliyev fevralın 1-də «Smart Africa» Təşəbbüsünün icraçı direktoru Hamadoun Toureni qəbul edib. Qonaq sonuncu dəfə 2014-cü ildə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi olarkən «Bakutel» Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində iştirak etmək üçün ölkəmizə səfərini məmnunluqla xatırladıb. 22 Afrika ölkəsinin üzv olduğu və 12 Afrika ölkəsinin dövlət başçısının idarə heyətinə daxil edildiyi «Smart Africa» Təşəbbüsü və onun fəaliyyəti haqqında məlumat verən Hamadoun Toure Təşəbbüsün Afrika qitəsi üçün vahid rəqəmsal platformanın yaradılması işində vacib rol oynadığını, işlərin artıq yaxşı nəticələr verdiyini, həmçinin layihələrdə peyk texnologiyalarının tətbiqi istiqamətində «Azərkosmos» ASC ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Prezident İlham Əliyev Azərbaycan ilə «Smart Africa» Təşəbbüsü arasında gələcək əməkdaşlığı dəstəklədiyini və bu sahədə istiqamətlərin müəyyənləşdirilməsinin önəmini vurğulayıb.

Sahibkarların təsnifatı yeni prinsiplə aparılacaq — səh. 2

Azərbaycan iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur — səh. 3

Hər kəs üçün əlverişli və rahat... — səh. 4

«Elektron hökumət»in əhatə dairəsi genişlənir — səh. 5

# Sahibkarların təsnifatı yeni prinsiplə aparılacaq

## sPrezident İlham Əliyev «Sahibkarlıq fəaliyyəti haqqında» Qanuna dəyişikliklə bağlı fərman imzalayıb

**QANUNA EDİLƏN DƏYİŞİKLİKDƏN İRƏLİ GƏLƏRƏK, AZƏRBAYCANDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MEYARLARA GÖRƏ BÖLGÜSÜ APARILACAQ. SAHİBKARLAR DÖRD QRUPA - MİKRO, KİÇİK, ORTA VƏ İRİ SUBYEKTLƏRƏ BÖLÜNƏCƏK VƏ ONLARIN HƏR BİRİNƏ AYRICA YANAŞMA TƏTBİQ EDİLƏCƏK. FƏRMANA UYĞUN OLARAQ, SAHİBKARLIĞIN TƏNZİMLƏNMƏSİ TƏDBİRLƏRİ HƏR QRUP ÜZRƏ TƏSNİFLƏŞDİRİLƏCƏK, SAHİBKARLARA DÖVLƏT DƏSTƏYİ VƏ GÜZƏŞTLƏRİ YENİ MEYARLAR ƏSASINDA HƏYATA KEÇİRİLƏCƏK.**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qanuna dəyişiklikləri şərh edərkən bildirib ki, əsas məqsəd sahibkarlıq subyektlərinə dövlət dəstəyi tədbirlərinin artırılması, hər bir növ sahibkarlıq subyektinin ayrı-ayrılıqda dəstəklənməsinə nail olmaqdır: «Sahibkarlıq subyektlərinin fərqləndirilməsi ünvanlılığa səbəb olmaqla sahibkarlarla işin keyfiyyətinin artmasına gətirib çıxaracaq. Yeni qanun sahibkarlıq subyektlərinə dövlət dəstəyinin səmərəliliyini artıracaq, xüsusilə kiçik və orta sahibkarlıq subyektləri ilə müvafiq qurumlar arasında əlaqənin müasir meyarlar əsasında qurulmasına şərait yaradacaq».

İqtisadçı-ekspert Vüqar Bayramov hesab edir ki, yeni yanaşma sahibkarlarla işin qurulmasında diferensiallığı artıracaq, dövlət dəstəyindən və güzəştlərindən istifadə zamanı konkretliyi təmin edəcək: «Nazirlər Kabinetinin təsnifatına uyğun olaraq kiçik və orta müəssisələr üçün həm dövriyyə, həm də işçilərin sayına uyğun olaraq fərqləndirmələr həyata keçirilirdi. Kiçik və orta müəssisələr sadələşdirilmiş vergi subyekti kimi vergi güzəştlərindən istifadə etmək hüququna malik idilər. Sadələşdirilmiş vergi subyektləri Bakıda fəaliyyət göstərdikləri halda, dövriyyənin 4%-i, rayonlarda isə dövriyyənin 2%-i həcmində vergi ödəyirdilər. Sadələşdirilmiş vergi subyektlərinin dövriyyəsi 200 min manatdan çox olduqda isə onlar sadələşdirilmiş vergi subyektləri deyil, daha iri və ya əlavə dəyər vergisi ödəyicisi hesab edilirdilər. Bu sıraya mikro sahibkarların əlavə edilməsinə ehtiyac var idi. Beləliklə, yeni dəyişikliklər həmin qrupa aid sahibkarlarla bağlı mürəkkəbliyi aradan qaldıracaq».

**Yeni qanun sahibkarlıq subyektlərinə dövlət dəstəyinin səmərəliliyini artıracaq, xüsusilə kiçik və orta sahibkarlıq subyektləri ilə müvafiq qurumlar arasında əlaqənin müasir meyarlar əsasında qurulmasına şərait yaradacaq**

Ekspertin fikrincə, qanuna edilmiş dəyişikliklər sahibkarlıqla bağlı son dövrlərdə aparılan institusional islahatların tələblərinə uyğun bəzi məsələlərin də həllini tapmasına kömək edəcək: «Bir müddət əvvəl Azərbaycanda Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi, eləcə də Kreditlərə Zəmanət Fondu yaradılıb. Təhlillər göstərir ki, sadələşdirilmiş vergi subyektləri, yaxud kiçik və orta sahibkarlar vergi güzəştlərindən istifadə etsələr də, onların, xüsusən də mikro sahibkarların kredit resurslarına çıxış imkanları məhduddur. Bu kateqoriyaya aid sahibkarlar girov təklif edə bilmədikləri üçün Sahibkarlığa Kömək Milli Fondunun kreditlərindən faydalana bilmirdilər. Nəticədə, xüsusən də daha kiçik sahibkarlıq subyektləri həm kreditlərə, həm də bazara çıxış imkanları baxımından çətinliklərlə üzləşirdilər. Sahibkarların qruplara ayrılması və mikro sahibkarlığın fərqləndirilməsi artıq onların bu cür problemlərinin həllinə imkan verəcək. Dövlət onların ayrıca dəstəklənməsinə geniş şərait yaradacaq».

İqtisadçı Radi Fətullayev də o fikirdədir ki, indiyədək sahibkarların konkret meyarlara bölünməməsi dövlət tərəfindən verilən maliyyə güzəştləri, digər imtiyazlar zamanı bir sıra hallarda problemlərə gətirib çıxarırdı, kiçik sahibkarlar ümumi sahibkarlığa dəstək tədbirləri sırasında diqqətdən kənarda qalırdı. Yeni meyarlar isə artıq bu cür pərakəndəliyi aradan qaldıracaq, hər bir sahibkarlıq subyektinə fərdi yanaşmaq mümkün olacaq.

**ELBRUS**

# Strateji yol xəritələrinin icra vəziyyəti müzakirə edilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Strateji yol xəritələri üzrə bütün işçi qruplar ilə birgə müzakirələr aparıb. Tədbirdə 40-dan çox dövlət qurumunun səlahiyyətli nümayəndəsi iştirak edib.

Müzakirələr zamanı strateji yol xəritələrinin icra vəziyyəti və planlaşdırılan tədbirlərin daha təfsilatlı müzakirəsi aparılıb. İşçi qrupun üzvləri qarşıda duran vəzifələrin həlli ilə bağlı Prezident Administrasiyası və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin suallarına aydınlıq gətiriblər. Qeyd edilib ki, kommunikasiyanın belə yüksək səviyyədə təşkili tapşırıqların daha rahat və səmərəli icrasına, digər tərəfdən isə sonrakı mərhələdə keçiriləcək monitorinq və qiymətləndirmə prosesinin inklüzivliyinin təmin olunmasına kömək edəcək. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq strateji yol xəritələrinin vaxtında və keyfiyyətlə icrası üçün bütün resurslar mobilizasiya olunub. Məhz bunun nəticəsidir ki, qeyri-neft sektoru və ixracı böyüyür, tədiyyə balansında müsbət saldo yaranıb, strateji valyuta ehtiyatları artır və makroiqtisadi sabitlik təmin olunub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bir tərəfdən yeni iqtisadi inkişaf trayektoriyasına qədəm qoyur, digər tərəfdən isə transmilli layihələrin icrasında öncüllük edir.

Qeyd edək ki, 2016-cı il dekabrın 6-da dövlət başçısı tərəfindən təsdiq olunan «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq Strateji Yol xəritələrində nəzərdə tutulmuş fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir. Mərkəzin məqsədi ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqla analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaqdan, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin etməkdən, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil etməkdən ibarətdir.

# Əldə olunan nailiyyətlər davamlı iqtisadi islahatların məntiqi nəticəsidir

**Azərbaycan «2018 iqtisadi azadlıq» indeksində 180 ölkə arasında 67-ci yerdə qərarlaşıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı xəbərə görə, «Heritage Foundation» tərəfindən hazırlanan hesabatda bildirilir ki, son on il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycan ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq, Asiya-Sakit Okean regionunda 43 ölkə arasında 14-cü yerdə müəyyənləşdirilib. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələrlə müqayisədə ön sıralarda yer alıb, həmçinin Rusiya da daxil olmaqla, bir sıra MDB ölkələrini qabaqlayıb.**

«İqtisadi azadlıq» indeksi 4 əsas indikator olmaqla, 12 alt-indikatora əsasən formalaşır. «Qanunun aliliyi», «Dövlət payı», «Səmərəli tənzimləmə» və «Bazarların açıqlığı» kimi əsas indekslər (indikatorlar) ölkələrin reytinqini formalaşdırır. Qeyd olunan indikatorlar üzrə isə müəyyənləşdirilən əsas alt-indikatorlara mülkiyyət hüquqları, hökumət bütövlüyü, məhkəmə effektivliyi, dövlət xərcləri, vergi yükü, fiskal sağlamlıq, biznes azadlığı, əmək azadlığı, pul azadlığı, ticarət azadlığı, investisiya azadlığı və son olaraq maliyyə azadlığı aid olunur. Hər bir alt-indikator indeks üzrə reytinqdə bərabər xüsusi çəkiyə malikdir.

«Qanunun aliliyi» indikatoru üzrə təyin olunan hər üç alt-indikator istiqamətində Azərbaycan irəliləyiş əldə edib ki, bu da ölkəmizin «İqtisadi azadlıq» indeksi reytinqində bir pillə yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Həmçinin, digər indikatorlar üzrə də artım müşahidə olunur. Bunlara misal olaraq, dövlət xərclərində inkişaf qeyd edilib və son üç il ərzində dövlət xərclərinin ÜDM-in 36,8 faizini təşkil etməsi müəyyənləşdirilib. Eyni zamanda, vergi yükü alt-indikatoru üzrə azalma qeyd olunub və ümumi vergi yükü ümumi gəlirin 15 faizini təşkil edir. Fiskal sağlamlıq alt-indikatoru dünya orta göstəricilərini üstələyərək, 95,5 faiz səviyyəsində müəyyənləşdirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncam, eləcə də «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» fərman nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması, maliyyə sabitliyi və davamlı iqtisadi inkişafın təmin olunması, Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi ilə bağlı mühüm nailiyyətlər əldə edilib. Ölkəmizin «İqtisadi azadlıq» indeksi üzrə reytinqdə irəliləməsi və bu indeks istiqamətində müəyyənləşdirilən indikatorların: biznes, əmək və maliyyə azadlığı göstəricilərinin dünya üzrə orta səviyyədən yuxarı qalxması, eyni zamanda ticarət və investisiya azadlığının yüksək səviyyədə olması buna əyani sübutdur.




# 2018-ci ildə inflyasiya 6-8 faiz civarında saxlanılacaq

## Mərkəzi Bankın İdarə Heyətinin 2017-ci ilin yekunlarına həsr olunmuş geniş iclası keçirilib

İclasda qeyd edilib ki, yeni qlobal iqtisadi reallıqlara uyğun olaraq son illərdə həyata keçirilən davamlı stabilləşdirmə tədbirləri nəticəsində ölkədə makroiqtisadi sabitlik və dayanıqlılığın əsasları yaradılıb. Tədiyyə balansı tarazlaşıb, valyuta ehtiyatlarına təzyiq azalıb, milli valyutanın xarici dəyəri sabitləşib və inflyasiya gözləntiləri nisbətən səngiyib. Bu müsbət nəticələr dərin makroiqtisadi manevr və çevik koordinasiya olunmuş makroiqtisadi siyasət çərçivəsinin tətbiqi sayəsində mümkün olub.

2017-ci ildə Mərkəzi Bank yeni pul siyasəti rejimi çərçivəsində makroiqtisadi dayanıqlığa yönəldilmiş siyasət həyata keçirib, faiz dərəcəsi və pul təklifi mənbələri makroiqtisadi sabitlik və milli iqtisadiyyatın inkişafının təmin edilməsi hədəflərinə uyğun şəkildə tənzimlənib.

Ötən il makroiqtisadi sabitlik meyillərinin yaranması qeyri-neft sektorunda iqtisadi artımın bərpasına şərait yaradıb, bu sektorda ümumi daxili məhsul real olaraq 2,7 faiz artıb. Xarici tələblə yanaşı, daxili tələb iqtisadi artımda mühüm rol oynayıb, dövlət büdcəsi xərcləri daxili tələbə təsir edən mühüm amillərdən biri olub. Valyuta bazarının sabitləşməsi, hətta manatın məzənnəsinin möhkəmləndiyi şəraitdə inzibati qiymətlərin və dünya ərzaq qiymətlərinin artması, bir sıra əmtəə qrupları üzrə tələb-təklif nisbətinin dəyişimi inflyasiyanın səviyyəsinə təsir edən başlıca amillər olub.

Qeyd olunub ki, monetar şərait əsasən fiskal sektorun və bank sisteminin likvidliyə olan ehtiyaclarının təsiri altında formalaşıb. Pul siyasəti alətləri inflyasiya və pul təklifi üzrə hədəflər, eləcə də pul siyasətinin transmissiyası xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilib. 2017-ci ilə pul siyasətinin əsas əməliyyat hədəfi olan manatla pul bazası 8,7 faiz artıb ki, bu da qeyri-neft sektoru üzrə iqtisadi artım tempini əhəmiyyətli üstələyir. İl ərzində iqtisadiyyatda ödənişlərin vaxtlı-vaxtında həyata keçirilməsi üçün daim kifayət qədər pul olub. Dəyər ölçüsü və ödəniş vasitəsi funksiyası ilə yanaşı, hesabat ilində manat müəyyən qədər yığım vasitəsi funksiyasını da bərpa etməyə başlayıb. Valyuta bazarında təklifin tələbi üstələməsi şəraitində manat ilin əvvəlindən 4 faiz möhkəmlənib ki, bu da inflyasiya gözləntilərinə və dollarlaşmaya azaldıcı təsir göstərib. Tədiyyə balansının profisiti ölkənin strateji valyuta ehtiyatlarının artmasına şərait yaradıb. Strateji ehtiyatlar 2017-ci ilin əvvəlinə nəzərən 4,2 milyard dollar artaraq ilin sonuna 42 milyard ABŞ dolları təşkil edib. Mərkəzi Bankın valyuta ehtiyatları isə 34 faiz artaraq ilin sonuna 5,3 milyard ABŞ dolları olub.

Pul siyasəti alətləri inflyasiya, inflyasiya gözləntiləri, pul təklifi üzrə hədəflər, maliyyə bazarlarında proseslər, habelə pul siyasətinin transmissiyasının xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilib. Mərkəzi Bank il ərzində faiz dəhlizinin parametrlərini bir neçə dəfə müzakirə edib və uçot dərəcəsini dəyişməz saxlayıb. Pula tələbin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli çərçivə və açıq bazar əməliyyatlarını aktiv saxlayıb. İl ərzində pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızların yeni siyahısı təsdiq edilib, çərçivə və açıq bazar əməliyyatlarının siyahısı genişləndirilib. 2017-ci ildə iqtisadi gözləntilərin effektiv idarə olunması üçün Mərkəzi Bank pul siyasətinin kommunikasiyası alətlərindən aktiv istifadə edib.

> **Milli valyutanın fundamental makroiqtisadi amillərdən irəli gəlməyən qısamüddətli dəyişkənliyinin qarşısının alınması məqsədilə məhdud sayda və həcmdə valyuta bazarına müdaxilə edilə bilər**

Mərkəzi Bankın qarşısında duran başlıca vəzifələrə gəlincə, bildirilib ki, 2018-ci il və ortamüddətli dövr Azərbaycanda yeni iqtisadi inkişaf modelinə keçid və dayanıqlı iqtisadi artıma nail olmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə makroiqtisadi və maliyyə sabitliyinin qorunması dayanıqlı iqtisadi artım üçün baza şərti olacaq. Mərkəzi Bank mandatına uyğun olaraq özünün stabilizasiya xarakterli balanslı pul siyasəti ilə əldə olunmuş makroiqtisadi və maliyyə sabitliyinin dayanıqlılığının təmin edilməsinə zəruri dəstək verəcək, hökumətlə birlikdə öz siyasətini inflyasiyanın birrəqəmli səviyyədə saxlanılmasına yönəldəcək, inflyasiyaya təsir imkanlarını artırmaq üçün pul siyasətinin strateji və əməliyyat çərçivəsini daha da təkmilləşdirəcək, bununla əlaqədar bütün istiqamətlərdə zəruri islahatların aparılması diqqətdə saxlanılacaq.

Hökumətin birrəqəmli inflyasiya proqnozunu da nəzərə almaqla sərəncamındakı alət və mexanizmlərdən istifadə edərək, Mərkəzi Bank 2018-ci ildə inflyasiyanı 6-8 faiz civarında saxlamağa çalışacaq. Fiskal siyasətdəki nisbi yumşalmanı nəzərə almaqla konservativ pul siyasəti davam etdiriləcək. Bunun üçün adekvat monetar şəraitin formalaşması təmin olunacaq. Xarici şokları effektiv absorbasiya etmək qabiliyyəti nəzərə alınaraq, çevik məzənnə rejimi saxlanılacaq. Milli valyutanın fundamental makroiqtisadi amillərdən irəli gəlməyən qısamüddətli dəyişkənliyinin qarşısının alınması məqsədilə məhdud sayda və həcmdə valyuta bazarına müdaxilə edilə bilər. Pul təklifinin həcmi iqtisadi artım və inflyasiya proqnozları, habelə maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tənzimlənəcək. Bununla belə, ödənişlərin fasiləsizliyini təmin etmək, iqtisadiyyatın zəruri həcmdə likvidliyə olan tələbatını ödəmək bundan sonra da diqqətdə saxlanılacaq.

Pul siyasəti hədəflərinə nail olmaq üçün Mərkəzi Bank sərəncamındakı alətlərdən makroiqtisadi vəziyyətə adekvat istifadə edəcək, bu alətlər üzrə kəmiyyət parametrləri proqnozlaşdırılan və faktiki inflyasiya arasındakı fərqdən asılı olaraq çevik dəyişdiriləcək. Banklar tərəfindən likvidliyin effektiv idarə edilməsinə şərait yaratmaq və pul siyasəti hədəflərinə nail olmaq üçün Mərkəzi Bank özünün müxtəlif müddətli çərçivə və açıq bazar əməliyyatlarını aktiv saxlayacaq. Alətlərdən istifadə bank sistemindəki likvidlik vəziyyətindən asılı olacaq. Struktur likvidlik profisiti olduğu təqdirdə, Mərkəzi Bankın sterilizasiya əməliyyatları üzrə portfeli genişlənə bilər. Faiz dəhlizinin parametrləri iqtisadi tsikl göstəriciləri, inflyasiya riskləri balansının təhlili və maliyyə bazarlarının müxtəlif seqmentlərində gedən proseslər nəzərə alınmaqla müəyyənləşdiriləcək. İnflyasiyanın dinamikası və inflyasiya gözləntiləri nəzərə alınaraq, uçot dərəcəsinin real səviyyəsinin pozitiv zonada qalmasına üstünlük veriləcək.

Siyasət qərarları qəbul edilərkən pul siyasətinin transmissiyası xüsusiyyətləri də nəzərə alınacaq, qərarlar qabaqlayıcı rejimdə qəbul ediləcək. Pul bazarının inkişaf səviyyəsindən asılı olaraq, pul siyasəti alətlərinin təkmilləşdirilməsi davam etdiriləcək. Əməliyyat hədəfinə effektiv şəkildə nail olmaq, alətlər üzrə kəmiyyət parametrlərini adekvat müəyyən etməyə imkan verən likvidliyin monitorinqi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi işləri davam etdiriləcək. Pul siyasətinin transmissiya effektinin gücləndirilməsi və maliyyə sektorunun resurs bazasının möhkəmləndirilməsindəki rolunu nəzərə alaraq, Mərkəzi Bank nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcək. Ölkənin nağdsız cəmiyyətə transformasiyasına dair Mərkəzi Bank tərəfindən hazırlanmış dövlət proqramının qəbul edilərək reallaşması yaradılmış müasir ödəniş infrastrukturundan istifadəni əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Mərkəzi Bank son dövrlərdə sürətlə populyarlaşan blokçeyn texnologiyalarının tətbiqi üzrə beynəlxalq prosesləri də izləyir və bu texnologiyalar əsasında maliyyə sektorunda müştəri-bank münasibətlərində rəqəmsal identifikasiya sisteminin yaradılması üzrə pilot layihənin reallaşdırılması nəzərdə tutulur.

2018-ci ildə tədavüldə nağd pulun strukturunun optimallaşdırılması, pul nişanlarının mühafizə sistemlərinin gücləndirilməsi, yubiley və əlamətdar hadisələrə həsr olunmuş xatirə pul nişanlarının tədavülə buraxılması və bütövlükdə nağd pul idarəetməsi sistemlərinin effektivliyinin artırılması və avtomatlaşma səviyyəsinin daha da yüksəldilməsi diqqət mərkəzində olacaq.

# Azərbaycan iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun «Vergilər» qəzetinə müsahibəsi

***- Aydın müəllim, 2017-ci ili Azərbaycan iqtisadiyyatının dönüş ili adlandırmaq mümkündür. Ölkə iqtisadiyyatında aparılan islahatların əsas təmayüllərindən biri də biznes mühitinin təkmilləşdirilməsidir. Bu sahədə ümumi mənzərəni necə səciyyələndirmək olar?***

- 2017-ci ildə ölkənin ümumi daxili məhsulu əvvəlki illə müqayisədə 0,1 faiz artaraq 70 milyard manatı ötüb. ÜDM-in 62,8 faizi iqtisadiyyatın qeyri-neft sahələrində, 37,2 faizi isə neft-qaz sektorunda istehsal edilib. Bu o deməkdir ki, iqtisadiyyatın ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərindədir. Ötən il qeyri-neft sahələrində 2,7 faiz artım qeydə alınıb, eyni zamanda qeyri-neft sənayesində məhsul istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz təşkil edib.

Ötən il Azərbaycanın ixrac gəlirlərinin əsas hissəsini qeyri-neft məhsulları təşkil edib. İxrac məhsullarının həm çeşidi, həm də coğrafiyasının şaxələndirilməsi öz mühüm təsirini göstərib. Ölkəmizin xarici ticarət dövriyyəsi artıb, əmtəə dövriyyəsində müsbət saldo yaranıb. İl ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 538 milyon dollar təşkil edib, nəticədə 2016-cı illə müqayisədə 2017-ci ildə qeyri-neft sektoru üzrə ixrac 24 faiz artıb. Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi genişlənib. Bu siyasətin mühüm uğuru olaraq ölkəmizin strateji valyuta ehtiyatları 2017-ci ildə 4,5 milyard dollar artaraq 42 milyard dollara çatıb.

Biznes mühiti ilə bağlı ötən illər ərzində bir sıra institusional islahatlar aparılıb, qanunvericilik bazası təkmilləşdirilib, inzibati prosedurlar sadələşdirilib, vergi yükü azaldılıb, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilib. Yeni qlobal çağırışların nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb, sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apelyasiya şuraları yaradılıb, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılıb, gömrük prosedurları sadələşdirilib, tələb olunan sənədlərin sayı azaldılıb və konkretləşdirilib, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər («yaşıl dəhliz», «elektron bəyanetmə» və s.) tətbiq edilir. 2017-ci ildə islahatların yeni mərhələyə qədəm qoyması ilə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində bir sıra ciddi addımlar atılıb. Ötən il vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində cəmi 83 yoxlama keçirilib. Müqayisə üçün, 2015-ci ildə belə yoxlamaların sayı 61 mindən çox olmuşdu. İndiyədək sahibkarlara investisiya dəyəri 2 milyard manatdan çox olan layihələr üzrə 236 investisiya təşviqi sənədi və bunun əsasında 1162 təsdiqedici sənəd verilib. Bütün bu amillər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi idarəetmənin təkmilləşdirilməsinə, sahibkarlığa dövlət dəstəyinin artırılmasına, yerli istehsalın stimullaşdırılmasına, biznes mühitinin yaxşılaşdırılmasına və şəffaflığın təmin edilməsinə şərait yaradır.

***- Diqqət mərkəzində olan istiqamətlərdən biri də regionların inkişafıdır...***

- Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları Azərbaycanın iqtisadi siyasətinin mühüm hissəsini təşkil edir. Regional inkişaf proqramı çərçivəsində, ilk növbədə, infrastruktur layihələrinə start verildi. Çünki infrastruktur olmadan sosial-iqtisadi layihələri icra etmək çətindir. Son 14 il ərzində bu layihələrə yönəlmiş böyük investisiyalar mühüm bəhrələrini verib. Bu dövr ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilib, 2004-cü ildə Azərbaycan elektrik enerjisini idxal edirdisə, hazırda elektrik enerjisini ixrac edir. Qazlaşdırma 51 faizdən 93 faizə çatdırılıb. İçməli su və kanalizasiya problemləri həll edilib. 2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idi isə hazırda 67 faizə çatıb. Bu göstərici Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlər görülüb. Son 14 ildə dörd - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib istifadəyə verilib. Meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına mühüm təsir edib. Yol çəkilişi geniş vüsət alıb və 12 min 300 kilometr uzunluğunda yol çəkilib. 2018-ci ildə bu rəqəm 15 minə çatdırılacaq.

> **Dövlət başçısı ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində ciddi addımların atılmasını, inflyasiyanın birrəqəmli həddə saxlanılması və süni qiymət artımına yol verilməməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini müvafiq qurumlar qarşısında mühüm vəzifə kimi qoyub**

Beləliklə, infrastruktur layihələrinin uğurlu icrası regionların inkişafında əsaslı dönüş yaradıb. 2004-cü ildən bəri Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb, qeyri-neft iqtisadiyyatında isə 2,8 dəfə artım olub. Sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanda 1,9 milyon iş yeri yaradılıb və onlardan 1,4 milyonu daimidir. İş yerlərinin 67,5 faizi regionların payına düşür. Son 14 ildə Azərbaycan iqtisadiyyatına 231 milyard dollar həcmində sərmayə qoyulub. Azərbaycan regional inkişaf proqramlarını öz qaynaqları hesabına maliyyələşdirib. Diqqət yetirsək görərik ki, birinci proqramın icrasına başlanılan zaman ölkəmizin strateji valyuta ehtiyatları cəmi 1,8 milyard dollar idi. Dövlət kifayət qədər əhatəli və böyük regional inkişaf proqramına bu rəqəmlə start vermişdi. Buna baxmayaraq, hər istiqamət üzrə nəzərdə tutulmuş konkret tədbirlər planı maksimum səviyyədə icra olundu. Hazırda valyuta ehtiyatlarımız 42 milyard dollardır. Bu gün adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdən birini tutur.

***- Bu inkişaf prosesi regionların daxili ehtiyatlarından istifadəyə necə təsir göstərdi?***

- Rayonlardakı qeyri-neft resurslarının istehsalı və ixracı imkanlarının artması, aqropark və sənaye zonalarının yaradılması, bölgələrdəki sahibkarların maliyyə imkanlarından istifadə edilməsi regionların iqtisadi potensialının yüksəlişinə ciddi təkan verib. Azərbaycanın inzibati rayonlarının böyük qismi hazırda öz daxili resursları və potensialı hesabına maliyyə xərclərini ödəmək iqtidarındadır. Bu gün respublikanın 33 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan formalaşdırır. Həmin şəhər və rayonların mövcud iqtisadi durumu qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş verir. Bu onu göstərir ki, iqtisadi göstəriciləri kifayət qədər yaxşı olan digər şəhər və rayonların da öz büdcələrini yerli gəlirlər hesabına təmin etmələri üçün real iqtisadi baza mövcuddur. Qarşıya qoyulmuş əsas hədəflərdən biri də məhz budur.

Hazırda iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması sahəsində dövlət tərəfindən görülən işlər regionlarda iqtisadi fəallığın güclənməsinə, sahibkarlıq subyektlərinin sayının artmasına və yeni müəssisələrin fəaliyyətə başlamasına zəmin yaradır.

***- Azərbaycanın ixrac potensialının artırılması istiqamətində hansı addımlar atılır?***

- Xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi ixracın asanlaşmasına, Azərbaycanın xarici əlaqələrinin, eləcə də ixracın coğrafiyasının genişlənməsinə şərait yaradır. Yeni bazarlara çıxışın təmin edilməsi ilə bağlı reallaşdırılan tədbirlər çərçivəsində Qazaxıstanın Aktau şəhərində kənd təsərrüfatı və digər qida məhsullarının saxlanmasını və satışını təmin edəcək logistik mərkəz istifadəyə verilib. Potensial ölkələrə ixrac missiyaları təşkil olunur, ölkəmiz beynəlxalq əhəmiyyətli sərgilərdə «Made in Azerbaijan» vahid ölkə stendi ilə iştirak edir, ixrac təşviqinin geri ödənilməsi mexanizmi tətbiq olunur, yerli məhsullarımız xarici KİV-də reklam edilir. 2017-ci ildə 10 ixrac missiyası təşkil olunub, Azərbaycan şirkətləri xarici ölkələrdə təşkil edilmiş 5 beynəlxalq sərgidə «Made in Azerbaijan» vahid ölkə stendi ilə təmsil olunub.

Dövlət başçısının 2018-ci il 11 yanvar tarixli fərmanına əsasən, ixracın dəstəklənməsi mexanizmlərinin və stimullaşdırıcı tədbirlərinin əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulur. Verilmiş tapşırıqlara uyğun olaraq, 2018-ci ildə xarici ölkələrə daha çox ixrac missiyaları həyata keçiriləcək və ilk dəfə olaraq Azərbaycana alıcı missiyaları təşkil ediləcək, beynəlxalq sərgilərdə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir.

Əlverişli coğrafi mövqeyi olan ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirilən tədbirlər də ixracın artmasına mühüm təsir edən faktorlardandır. Azərbaycanın tranzit imkanlarının reallaşması üçün iri layihələr reallaşdırılır. Bu istiqamətdə Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, digər nəqliyyat layihələrinin icrası ötən dövrdə uğurla davam etdirilib. 2017-ci ildə region üçün ən əlamətdar hadisələrdən biri - Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışını xüsusilə qeyd etmək olar. Bu strateji dəmir yolu xəttinin istifadəyə verilməsi ixracın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

***- 2018-ci ilin ilk ayı başa çatdı... Ölkəmizdə bundan sonrakı iqtisadi prosesləri necə proqnozlaşdırmaq olar?***

- Prezident İlham Əliyev Azərbaycanın 2018-ci il üçün iqtisadi prioritetləri barədə danışarkən qeyd edib ki, əsas hədəflər iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsinin sürətləndirilməsidir. Dövlət başçısı ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox ciddi addımların atılmasını, dövlət investisiya layihələrinin icra olunmasını, inflyasiyanın birrəqəmli həddə saxlanılması və süni qiymət artımına yol verilməməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini müvafiq qurumlar qarşısında mühüm vəzifə kimi qoyub. Azərbaycanın sənaye potensialının artırılması, bölgələrdə sənaye zonalarının, fermer təsərrüfatlarının yaradılması prosesinin sürətləndirilməsi, aqrar sahəyə dövlət dəstəyinin davam etdirilməsi istiqamətində digər layihələr həyata keçirilir. Böyük ixrac potensialına və ölkəyə valyuta gətirmək imkanına malik olan ənənəvi sahələrin inkişaf etdirilməsi, pambıqçılıq, baramaçılıq, üzümçülük, tütünçülük, zeytunçuluq, fındıqçılıq, çayçılıq, arıçılıq və digər sahələrin inkişafı istiqamətində qarşıya mühüm vəzifələr qoyulub. İqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün icra olunan strateji yol xəritələri inkişafın keyfiyyətcə yeni modelini formalaşdıracaq.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

Milli Maclisda

## Yeni qanun layihəsi parlamentə təqdim olunub

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında «Ələt azad iqtisadi zonası haqqında» qanun layihəsi müzakirə olunub. Milli Məclis sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov Azərbaycan Prezidentinin imzası ilə parlamentə daxil olmuş qanun layihəsi barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, qanun layihəsini Prezidentin 31 may 2017-ci il tarixli sərəncamına əsasən təşkil edilmiş işçi qrup hazırlayıb. Sənədi hazırlayan mütəxəssislər, hüquqşünas və ekspertlər tərəfindən azad iqtisadi zonalara dair beynəlxalq qanunvericilik dərindən öyrənilib və ən uğurlu nəticələr verən, investorlar üçün əlverişli şərait yaradan müddəalar əsas götürülüb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, sənəddə dövlət maraqları ilə investorların maraqları uzlaşdırılıb. Layihə azad iqtisadi zonaların fəaliyyəti üçün müvafiq hüquqi təminat yaradacaq. Vurğulanıb ki, azad zonaların fəaliyyəti iqtisadiyyatın davamlı inkişafına və rəqabət qabiliyyətinin artmasına təkan verəcək, Azərbaycanın ixrac potensialını gücləndirəcək. Son 20 ildə transmilli enerji infrastrukturunun, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Şimal-Cənub nəqliyyat dəhlizi və s. kimi beynəlxalq layihələrin reallaşdırılması investorların ölkəmizə marağını xeyli artırıb. Azad iqtisadi zonaların fəaliyyəti əhalinin məşğulluğuna da böyük töhfə verə bilər.

Sonda qanun layihəsi yekdilliklə Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

## Regionlarda vergi ödəyiciləri ilə görüşlər keçirilir

Yanvarın 29-da 11 saylı Ərazi Vergilər Departamenti tərəfindən Mingəçevir şəhərində vergi ödəyiciləri ilə görüş keçirilib. Tədbirdə elektron qaimə-fakturanın tətbiqi, Vergilər Nazirliyinin təsdiq etdiyi «Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması» Qaydaları və qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı müzakirələr aparılıb.

---

Yanvarın 30-da 9 saylı Ərazi Vergilər İdarəsi tərəfindən Göyçay rayonunda fəaliyyət göstərən idarə, müəssisə, təşkilat təmsilçiləri və sahibkarlarla görüş keçirilib. Tədbirdə vergi ödəyiciləri üçün aydınlaşdırılmalı olan bir sıra məsələlər barədə ətraflı məlumat verilib. İdarənin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri Teyyub Əsgərov elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə qaydaları, ictmai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotunun aparılması qaydaları, vergi ödəyicilərinin qeydiyyatı, nağdsız hesablaşmaların genişləndirilməsi, əmək müqaviləsinin rəsmiləşdirilməsi və şəffaf vergi partnyorluğu ilə bağlı məsələlərə aydınlıq gətirib.

---

Fevralın 1-i və 2-də 3 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında topdansatış ticarət və istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə keçirilmiş görüşün də başlıca mövzusu «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları»na həsr edilib.

Bütün görüşlər zamanı vergi qanunvericiliyində əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, uçot sisteminin şəffaflaşdırılması, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər, əmək müqaviləsinin bağlanması və s. barədə suallara ətraflı izahatlar verilib.

## «ASAN imza» həm dövlətin, həm də vətəndaşın işini asanlaşdırır

Azərbaycanda «E-hökumət»dən mobil hökumətə keçid strategiyasının ən mühüm vasitəsi olan «ASAN imza» müasir dövlət quruculuğunun innovativ platformasıdır. 2013-cü il mayın 1-dən tətbiq olunan «ASAN imza» Vergilər Nazirliyi və ölkədə fəaliyyət göstərən mobil operator tərəfindən verilən, elektron xidmət istifadəçisinin identifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən edilməsini təmin edən elektron xidmətdir. «ASAN imza» mövcud e-xidmətlərin hər birindən istifadəni mümkün edir.

### Əldə olunması

Fiziki və hüquqi şəxslər SİM kartı əldə etmək üçün əvvəlcə «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən «Azercell», «Bakcell» və «Nar» şirkətlərinin «Müştəri xidmətləri mərkəzləri»nə müraciət etməlidirlər. Həmin kartı mobil operatorların öz ofis və müştəri xidmətlərindən də almaq mümkündür. Müraciət edən şəxsə verilmiş SİM kartın üzərində «ASAN imza» PİN kodu çap olunur, həmin kod kartın alt qatında gizlədilir.

Sonra vətəndaşlar elektron imza sertifikatlarını aktivləşdirmək üçün Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etməlidirlər. Ərizə və digər sənədlərin formaları ilə ASXM-in saytının sənədlər bölməsində tanış olmaq mümkündür.

Ərizə doldurulduqdan sonra ASXM-də təsdiqlənir və məlumat sistemə daxil edilir. Bu prosesin növbəti mərhələsi ASXM-in qeydiyyat operatoru vasitəsilə «ASAN imza»nın müqavilə formasının çap olunmasıdır. Müqavilə formasını imzalamaqla vətəndaşlar «ASAN imza» xidmətinin şərtlərini qəbul edir və sertifikatları təsdiqləyirlər. Beləliklə, sertifikatlar aktivləşdirilir və vətəndaşlar üçün «ASAN imza» xidmətlərindən istifadə etmək mümkünləşir.

### Növləri

«Asan İmza» sertifikatlarının üç növü vardır: fiziki şəxslər (vətəndaşlar) üçün elektron imza sertifikatları, hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün elektron imza sertifikatları və dövlət qulluqçuları üçün elektron imza sertifikatları. «ASAN imza» sertifikatları 3 il ərzində etibarlı hesab olunur.

### Xidmətdən istifadənin dayandırılması

İstifadəçi «ASAN imza» üzrə xidmətləri dayandırmaq istədikdə sertifikatı ləğv etməlidir. Bu halda ASXM-ə gedərək sertifikatın ləğvi ilə bağlı ərizə formasını imzalamaq lazım gəlir və bundan sonra sertifikat ləğv olunur.

Yeri gəlmişkən, səlahiyyətli dövlət orqanının və ya təmsilçi şirkətin sertifikatları vətəndaşın iştirakı olmadan da ləğv etmək səlahiyyəti var. Belə hal yarandıqda ASXM vətəndaşı dərhal məlumatlandırır.

### Əhəmiyyəti

«ASAN imza» «E-hökumət»in ən yaxşı modeli kimi elektron xidmətlərin genişlənməsinə, biznesin inkişafına, yerli və xarici sahibkarların qeydiyyatının və fəaliyyətinin asanlaşmasına kömək edir. «ASAN imza»nın tətbiqi ilə hüquqi şəxsin onlayn qeydiyyatı prosesinə sərf edilən müddət bir neçə dəfə azalıb. 2018-ci il yanvarın 1-dək vergi ödəyicilərinə verilmiş «ASAN imza» sertifikatlarının ümumi sayı 404 mindən çox olub.

### Nağdsız ödənişlərə təsiri

2015-ci ildə «ASAN imza» mobil elektron imza xidmətinin Hökumət Ödəniş Portalına inteqrasiya edilməsi və vətəndaşların portal vasitəsilə ödənişləri rahat şəkildə həyata keçirməsi (vergilər və digər dövlət rüsumları, ipoteka ödənişləri, kommunal və rabitə xidmətləri və s.) nağdsız ödənişlərin stimullaşdırılmasında mühüm bir vasitə oldu. Növbəti illərdə xidmətlər üzrə rüsumlara görə ödənişlərin real vaxt rejimində elektron formada qəbulunun təmin edilməsi, kommunal və digər xidmət müəssisələri üzrə ödənişlərin aparılması imkanlarının yaradılması, büdcə ödənişlərinin həyata keçirilməsi iqtisadiyyatda nağdsız ödənişlərin həcminin artırılmasına imkan yaradıb.




«ASAN imza» Azərbaycanın ixrac potensialının artırılmasında biznes üçün səmərəli vasitəyə çevrilməkdədir. Bu xidmət «Azexport.az» portalına inteqrasiya edilməklə «Made in Azerbaijan» brendi ilə ixrac olunan məhsulların istehsalçıları ilə dünyanın nüfuzlu biznes nümayəndələri arasında elektron ticarət mübadiləsinin yaradılmasına töhfə verə bilər.

**ELBRUS**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Malların təsərrüfatdaxili yerdəyişməsi

***Məhsulların istehsalını və satışını həyata keçirən müəssisə tərəfindən həmin məhsulların anbardan pərakəndə ticarət obyektlərinə verilməsi hansı qaydada rəsmiləşdirilməlidir?***

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 3.5-ci bəndinə əsasən, pərakəndə ticarət fəaliyyəti göstərən vergi ödəyicisinin bu fəaliyyətlə yanaşı, istehsal (o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı) və topdansatış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərdən) malların pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

**Qeyd olunanlara əsasən:**

İstehsalçı müəssisə tərəfindən istehsal olunan məhsulların özünə məxsus təsərrüfat obyektlərində (subyektlərində) pərakəndə qaydada satışının həyata keçirilməsi məqsədilə həmin məhsulların istehsal müəssisəsindən pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilməklə rəsmiləşdirilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları fevralın 1-nə **5 milyard 381,2 milyon** dollar olub. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyard 54 milyon dollar çoxdur.
- 2018-ci il fevralın 1-nə ölkədə pul bazası **8761,6 milyon** manat təşkil edib. Bu, yanvarın 1-i ilə müqayisədə 218,4 milyon manat çoxdur.
- Dekabrın 31-nə Azərbaycanda fəaliyyət göstərən bankların cəmi aktivləri **27,921.0 milyon** manat, cəmi öhdəlikləri isə 24,211.8 milyon manat təşkil edib.
- 40 milyard ABŞ dolları sərmayə ilə həyata keçirilən, uzunluğu **3 min 500** kilometr və 4 seqmentdən ibarət olan «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşdırılması prosesi həlledici mərhələyə daxil olub.
- Ötən iki il ərzində Böyük Britaniya Azərbaycandakı neft-qaz proqramına **1,3 milyard** funt sterlinq ayırıb.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Hər kəs üçün əlverişli və rahat...

## *Azərbaycanda iqtisadi islahatların dərinləşməsində nağdsız ödənişlərə böyük önəm verilir*

Ölkədə nağdsız hesablaşmaların dairəsini genişləndirmək məqsədilə əhəmiyyətli addımlar atılır, ticarət və ictimai iaşə obyektlərində quraşdırılan POS-terminalların sayı ildən-ilə artır. Bu prosesin tərkib hissəsi olaraq bank kartları biznesində də canlanma müşahidə olunmaqdadır. Hazırda Azərbaycanda öz müştərisinə Debet (elektron) plastik kartları (POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilir), Kredit plastik kartları (Visa Classic, MasterCard Standard, Visa Gold, MasterCard Gold, Visa Platinum, MasterCard Platinum və s.), İnternet plastik kartları təklif etməyən bank, demək olar ki, yoxdur. Son vaxtlar «Bolkart», «Albalıkart», «Worldkart» kimi kartla ödəniş kampaniyalarının xeyli genişləndiyi müşahidə olunur. Diqqətçəkən məqamlardan biri də odur ki, bank müştəriləri bu cür kampaniyalara, yeni alış-veriş imkanlarından bəhrələnməyə daha çox maraq göstərirlər. İri mağazaların, butiklərin, restoran və hotellərin, digər ticarət və ictimai iaşə obyektlərinin də nağdsız hesablaşma imkanları təkmilləşdirilməkdədir.

**Nağdsız hesablaşmalar** pul nişanlarından istifadə etmədən ödəniş sənədləri vasitəsilə həyata keçirilən ödənişlər, bank hesabında köçürmə yolu ilə aparılan maliyyə hesablaşmalarıdır. Bu halda pul vəsaiti tədavülçünün hesabından alıcının hesabına köçürülür. Nağdsız hesablaşmalar təsərrüfat daxilində müəyyən sistemlər əsasında təşkil olunur, burada nağdsız hesablaşmaların təşkilinin bütövlüyü prinsipi, təşkilatlara təqdim edilən tələblər, təsərrüfatın müəyyən konkret şəraiti, eləcə də hesablaşmaların forma və üsulları və bu üsulların sənəd dövriyyəsi ilə sıx bağlılığı nəzərdən keçirilir.

**Nağdsız ödəniş** - nağd pulun iştirakı olmadan dəyərin hərəkəti deməkdir. Burada qarşılıqlı tələblər nəticəsində pul vəsaitlərinin kredit təsisatlarının hesabları ilə yerdəyişməsi nəzərdə tutulur. Nağdsız ödənişlər çek, veksel, kredit kartları və digər kredit alətləri vasitəsilə həyata keçirilir.

Nağdsız pul dövriyyəsi zamanı bir sıra əməliyyat həyata keçirmək mümkündür. Bu halda hüquqi şəxslər və kredit təşkilatları kredit alınması və qaytarılması ilə bağlı, hüquqi şəxslər və əhali əməkhaqqı və qiymətli kağızlar üzrə gəlirlərin əldə olunmasına görə, fiziki və hüquqi şəxslər dövlət xəzinəsi ilə vergi, rüsum və digər icbari ödənişlərin verilməsinə görə əməliyyatları reallaşdıra bilərlər. Nağdsız ödənişlərin həcmi ölkədəki məhsul dövriyyəsi, qiymətlərin səviyyəsi, hesablar və həmçinin bölüşdürücü və təkrar bölüşdürücü münasibətlərdən asılıdır.

**Nağdsız hesablaşmanın üstünlükləri**

Xatırladaq ki, Azərbaycanda plastik kartlardan ilk dəfə geniş şəkildə istifadəyə 2003-cü ildə Bakı və Sumqayıt şəhərlərində pensiya ödənişlərindən başlanıb. Sonrakı illərdə bu təcrübə digər bölgələrdə də tətbiq olunub və təxminən 2 il ərzində proses bütün ölkəni əhatə edib. 2004-cü ilin dekabrında isə «Azərbaycanda müasir ödəniş sistemlərinin təkmilləşdirilməsi və inkişafı üzrə Dövlət Proqramı» təsdiqlənib. Proqramın qəbul edildiyi vaxtdan Azərbaycanda pensiya və müavinətlərin, əlavələrin, habelə büdcə təşkilatlarında çalışanların maaşının plastik kartla verilməsi istiqamətində mühüm addımlar atılıb və bu, ölkədə plastik kart bazarının təkmilləşdirilməsinə şərait yaradıb. Bu sistemin əsas və ən üstün cəhətlərindən biri odur ki, nağd ödəmələrdən fərqli olaraq, kartla pulun nə vaxt və hara xərcləndiyinə nəzarət etmək mümkündür.

Kartla ödəniş və ticarət üsulları Azərbaycan üçün yeni olmasa da, ticarət və ictimai iaşə obyektlərində nağdsız ödəmələrdən istifadə ümumi dövriyyədə olan vəsaitin çox az hissəsini əhatə edir. Statistik təhlillər göstərir ki, Azərbaycanda nağdsız ödənişlərdən istifadə ümumi dövriyyənin cəmi 15-20 faizini təşkil edir. İnkişaf etmiş ölkələrdə isə bu göstərici 90 faizdən yuxarıdır, bəzi ölkələrdə isə hətta 100 faizə çatır.

Nağdsız ödənişlərin alıcılar, şirkətlər və ölkə üçün bir çox üstünlükləri var. Bu cür ticarətdə ödəmələr onlayn üsulla aparıldığından bütün hesablaşmalar qeydə alınır və vergiyə cəlb oluna bilir. Nəticədə vergidən yayınmanın qarşısı alınır. Ekspertlər bildirirlər ki, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi «kölgə iqtisadiyyatı»nın xeyli azalmasına şərait yaradır. Nağdsız ödəniş sisteminin tətbiqi həm də o deməkdir ki, pullarımız daha etibarlı vasitə olan kartlarda saxlanılır. Nağd gəzdirilən pulları itirmək və oğurlatmaq ehtimalı daha yüksəkdir, kart isə pul daşımaq problemini aradan qaldırır.



Bundan əlavə, kartdan istifadə etməklə dünyanın hər yerində ödəniş aparılması, habelə bankomat, kommersiya banklarının filial və şöbələrində quraşdırılmış POS-terminal şəbəkəsi vasitəsilə nağd pul vəsaitinin əldə edilməsi mümkündür. Ödəniş kartı vasitəsilə bir sıra xidmətlərin əldə olunması, məsələn, mehmanxana nömrələrinin öncədən sifariş edilməsi, təyyarə, avtobus, sərnişin qatarına biletlərin internet vasitəsilə alışı bu gün reallığa çevrilib. İndi Bakıdan nəinki xaricə, hətta Azərbaycanın istənilən bölgəsinə bu nəqliyyat növlərinə kartla bilet əldə etmək mümkün və asandır.

Nağdsız hesablaşmanın bir üstünlüyü də odur ki, kiməsə pul göndərmək üçün bankomatdan pul çıxarıb, sonra banka gəlmək və köçürmə etməyə də ehtiyac yoxdur. Çünki bankomat vasitəsilə bir kartdan digər karta real vaxt rejimində pul köçürmək mümkündür. İndi kommunal ödənişləri etmək üçün rabitə xidməti müəssisələrinə getməyə ehtiyac yoxdur: bu işin internet vasitəsilə həyata keçirilməsi əhali arasında gündən-günə populyarlaşır.

Millət vəkili Əli Məsimli bildirib ki, beynəlxalq təcrübədə maliyyə-kredit, pul siyasətində nağdsız hesablaşmalar xüsusi yer tutur. Onun sözlərinə görə, iqtisadiyyatı oturuşmuş sistemləri nağdsız hesablaşmalardan kənar təsəvvür etmək mümkün deyil: «Nağdsız hesablaşma - həm bilavasitə iri ödənişlərin, o cümlədən vergilər və rüsumların, kommunal xidmət hesablaşmalarının, həm də xırda ödənişlərin həyata keçirilməsində istifadə olunur. Dövlət orqanlarının, bankların və xidmət obyektlərinin təklif etdiyi kartla hesablaşmalardan istifadə birinci növbədə vətəndaş üçün əlverişlidir. Çünki kartla ödəniş insanların vaxt itkisinin qarşısını alır, onların həyatını asanlaşdırır. Nağdsız hesablaşmalar ticarət və xidmət obyektlərinin şəffaf fəaliyyət göstərməsi üçün bir imkandır və insanlar bu imkanlardan maksimum istifadə etməlidirlər. Bu cür hesablaşmalar geniş vüsət alsa, bu, həm də vergi yükünün aşağı düşməsi istiqamətində hökumət tərəfindən növbəti addımların atılması üçün yaxşı bir zəmin yaradar».

### BUNLARI BİLMƏK VACİBDİR

Ödəniş kartı ilə ticarət mərkəzlərində, mağazalarda, iaşə obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsilə həyata keçirilir. POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır.

POS-terminallar vasitəsilə nağdsız ödənişlər həyata keçirilir. Yəni kart sahiblərinin nağd vəsaiti olmasa da alış-veriş etmələri təmin olunur. POS-terminal vasitəsilə malın və ya xidmətin ödənilməsi zamanı müştəridən komissiya tutulmur. Bu sistemlər sadəcə müştərilərə deyil, eyni zamanda müəssisələrə də xeyir verir.

**POS-terminaldan istifadənin müəssisələrə verdiyi rahatlıqlar:**

- ödəniş məbləğlərinin dəqiq olması və hesablaşmaların rahat aparılması;
- qalıq məbləğin müştəriyə qaytarılması üçün kiçik əskinaslara ehtiyacın yaranmaması;
- müştərilərin sayının artırılması;
- nağd vəsaitlərlə olan əməliyyatlarda iş yükünün azaldılması;
- inkassasiya xidmətlərinə olan ehtiyacın azaldılması;
- mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin artırılması;
- saxta pullarla hesablaşma riskinin aradan qaldırılması.

**POS-terminal vasitəsilə əməliyyatlar icra edərkən bəzi nüanslarda diqqətli olmaq lazımdır:**

- POS-terminal vasitəsilə ödənişlərin aparılması zamanı ödəniş kartı daim nəzarət altında saxlanılmalıdır;
- hesablaşmanın aparılması zamanı PİN-kodu daxil etdikdə, digər şəxslərin görmədiyinə əminlik olmalıdır;
- məhsul və xidmətlərin dəyəri ödənilərkən müvafiq qəbzin verilməsi tələb edilməlidir;
- POS-terminal vasitəsilə PİN-kod daxil edilmədən əməliyyat həyata keçirərkən qəbz imzalanır. Qəbzin imzalanması kart sahibinin hesabından pul vəsaitinin silinməsinə razılıqdır (bəzən qəbzin imzalanması tələb olunmur);
- qəbz üzərində zəruri rekvizitlərin (ödənişin məbləği, ödənişin valyutası və s.) olmasına diqqət yetirilməlidir;
- Pərakəndə ticarət, iaşə və digər xidmət müəssisəsində həyata keçirilmiş alış geri qaytarılarkən ödənilmiş pul vəsaitinin kart hesabına bərpa edilməsi məqsədəuyğundur.

**Elxan SALAHOV**

# Qida təhlükəsizliyi sahəsində mühüm addım

Bu ildən fəaliyyətə başlayan Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni və bu sahədə dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ramil Hüseyn bildirib ki, agentliyin yaradılması prosesində müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınıb. Qarşıya qoyulmuş vəzifələrdən biri də dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılmasıdır. Agentlik bu sahədə idarəetmənin səmərəliliyini və optimallığını təmin edəcək, pərakəndəliyi və təkrarlanmaları aradan qaldıracaq. Qida təhlükəsizliyi ilə bağlı vahid idarəetmənin tətbiqi resurslara qənaət edilməsinə, istehlakçı maraqlarının qorunmasına, ixrac və idxal proseslərində sənədləşmənin asanlaşmasına, xarici ölkələrə ixrac olunan qida məhsullarının qida təhlükəsizliyi sertifikatı ilə təmin edilməsinə, idxal olunan qida məhsullarının təhlükəsizliyinə, sahibkarlıq subyektlərində yoxlamaların azaldılmasına və şəffaflaşdırılmasına, genetik modifikasiya olunmuş qida məhsullarının ölkəyə idxalına nəzarətin gücləndirilməsinə şərait yaradacq.

Bununla həm də Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətindəki paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması ilə bağlı tədbirin icrası mümkün olacaq.

Ekspertin sözlərinə görə, bütün maraqlı tərəflərin iştirakçılığına və riskəsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sisteminin yaradılması ilk növbədə Azərbaycan vətəndaşlarının keyfiyyətli qida məhsulları ilə təminatına xidmət edir.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib ki, ölkədə istehsal edilən və ölkəyə idxal olunan qida məhsullarını, habelə onları qablaşdırma materiallarını qida təhlükəsizliyi baxımından dövlət qeydiyyatına alan və reyestrini aparan, qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirməyə məsul olan agentlik qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dövlət nəzarətini həyata keçirəcək.

Onun sözlərinə görə, agentlik həm də qida təhlükəsizliyi sahəsində risklərin idarə olunması, hazır qida məhsullarının sertifikatlaşdırılması və qeydiyyata alınması istiqamətində fəaliyyət göstərəcək. Təftiş və yoxlamaların həyata keçirilməsi sahibkarlıq subyektlərinin fəaliyyətində maneçilik törədən yoxlama olmayacaq. Bu yoxlama və təftiş sahibkarlıq subyektlərinə yardım və dəstək formatında həyata keçiriləcək: «Agentliyin həm Bakıda, həm də regionlarda bölmələri fəaliyyətə başlayacaq. Əməkdaşlarımız qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə müvafiq normaları, beynəlxalq standartları təşviq və təbliğ edəcək».

Q.Təhməzli onu da vurğulayıb ki, ölkədə qida təhlükəsizliyi ilə bağlı təlim mərkəzləri də yaradılacaq.

**Fəxriyyə İKRAMQIZI**

# «Elektron hökumət»in əhatə dairəsi genişlənir




«E-hökumət» layihəsi «Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya»ya (2003-2012-ci illər) əsasən işlənib hazırlanmış və «Elektron Azərbaycan» Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Layihə informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsini, əhali, biznes qurumları, həmçinin öz aralarında əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutur, vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına və informasiya tələbatının dolğun ödənilməsinə şərait yaradır.

Millət vəkili Tahir Mirkişili bildirmişdir ki, Azərbaycanda dövlət strukturlarında informasiya və kommunikasiya texnologiyalarının tətbiqi iki istiqamətdə - dövlət idarəetməsində, eləcə də dövlət-vətəndaş, dövlət-biznes münasibətlərində aparılır və indiyədək hər iki istiqamət üzrə xeyli uğurlar əldə edilmişdir: «Dünya İqtisadi Forumunun açıqladığı rəqabətqabiliyyətlilik reytinqində dövlət orqanlarında İKT-nin tətbiqinə görə dünya sıralamasında Azərbaycan 137 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Bu, yaxşı göstəricidir. Son illərdə fəaliyyətə başlayan qurumlar arasında «ASAN xidmət»in fəaliyyətini xüsusi vurğulamağa dəyər. Ölkədə kompüterdən istifadə edən müəssisələrin xüsusi çəkisi 65%-dir. Bu istiqamətdə görüləsi xeyli işlər var. Sahibkarlıqda İKT-nin tətbiqi biznesin rəqabət qabiliyyətliliyini artırır və gəlir gətirir. 2017-ci ildə Milli Məclis tərəfindən 20-dən çox qanun layihəsinə edilmiş dəyişiklik məhz elektron münasibətlərin tənzimlənməsinə yönəlmişdir. «Elektron hökumət» portalından istifadə edən istifadəçilərin sayı da artan xətlə yüksəlir. İnsanların texnologiyaya marağı xidmətlərin internet üzərindən təqdim olunmasını tələb edir. Bu, bir növ, sosial sifarişdir və dövlət də həmin sifarişi yerinə yetirir».

Qeyd edək ki, vətəndaşların «Elektron hökumət» portalına marağının artması müşahidə olunmaqdadır. Statistikaya görə, portala daxil olmaq üçün heç bir dövlət rüsumu ödəmədən sadələşdirilmiş şifrə-parol almaq mümkündür və artıq portaldan istifadə edənlərin sayı 529.309 nəfər təşkil edir. 2017-ci ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin (MHM) operatoru olduğu «Elektron hökumət» portalı üzərindən elektron xidmətlərə müraciət edənlərin sayı 23 milyondan çox olub.

İndiyədək «Elektron hökumət» portalı üzərindən xidmətlərə ən çox müraciət olunan 10 qurum bunlardır: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - 9.341.135; Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi - 8.327.251; Dövlət İmtahan Mərkəzi - 3.173.948; Dövlət Gömrük Komitəsi - 961.392; «Azərsu» ASC - 347.243; Əmlak Məsələləri Dövlət Komitəsi - 103.965; Daxili İşlər Nazirliyi 96.568; Ədliyyə Nazirliyi 58.253; Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi - 54.417; Dövlət Miqrasiya Xidməti - 52.053.

Statistikaya əsasən, 2017-ci ildə «Elektron hökumət» portalının təqdim etdiyi xidmətlərə müraciət sayı 23 milyondan artıq olub, qeydiyyatdan keçmiş istifadəçilərin sayı 200 minə yaxın olub.

**Fəxriyyə İKRAMQIZI**

# Aİ ölkələrinin 1400-dən çox şirkəti Azərbaycanda fəaliyyət göstərir

Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyəti İqtisadiyyat Nazirliyində olub. Görüşdə Azərbaycan Respublikası Prezidentinin son 10 ildə Avropa İttifaqı ölkələrinə 6 rəsmi səfər etdiyi, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və keçirilən görüşlərin mühüm əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, Azərbaycan və Aİ arasında Tərəfdaşlıq və Əməkdaşlıq, Şərq Tərəfdaşlığı Təşəbbüsü, Viza və Readmissiya haqqında sazişlər imzalanıb, Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planı təsdiq edilib.

Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Azərbaycanda Aİ ölkələrinin 1400-dən çox şirkəti fəaliyyət göstərir. 2017-ci ilin 11 ayında respublikamızın xarici ticarətində bu ölkələrin payı 41 faiz təşkil edib və 2012-ci ildən iqtisadiyyatımıza təqribən 15 milyard ABŞ dolları həcmində investisiya yatırılıb. Avropa İttifaqının 24 üzv ölkəsi ilə Azərbaycan arasında ikiqat vergitutmanın aradan qaldırılması, 17-si ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər, 9 üzv ölkə ilə Strateji Tərəfdaşlıq Bəyannaməsi imzalanıb, 16 üzv dövlətlə Hökumətlərarası Komissiya və İşçi Qrupu fəaliyyət göstərir. 2012-ci ildən indiyədək Avropa İttifaqı ilə 120-dən artıq tədbir, biznes-forum keçirilib. Azərbaycan və Avropa İttifaqı enerji sahəsində uğurlu əməkdaşlıq edir və bu istiqamətdə Cənub Qaz Dəhlizi layihəsi xüsusilə önəmlidir.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyəti yaxın günlərdə Çinə səfər edəcək və səfər zamanı ölkəmizin tranzit imkanlarına dair təqdimat keçiriləcək. Bundan başqa, bu ilin martında Brüsseldə Avropa İttifaqı ilə keçiriləcək görüşlərdə Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Komissarı ilə 2017-ci ildə Bakıda keçirilmiş görüşün nəticəsi olaraq müzakirələr davam etdiriləcək, Avropa İttifaqına üzv ölkələrin investisiyalarının Azərbaycana cəlb edilməsi və Azərbaycan məhsullarının güzəştli şərtlərlə Avropa bazarlarına daxil olması, nəqliyyat və yükdaşıma sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə ediləcək, beynəlxalq nəqliyyat layihələri təşviq olunacaq.

Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey ölkəmizə səfər zamanı Prezident İlham Əliyevin Avropa Komissiyası nümayəndə heyətini qəbul etdiyini məmnunluqla vurğulayıb, bir sıra görüşlər keçirildiyini diqqətə çatdırıb.

Henrik Hololey 2011-ci ildəki səfərindən ötən müddət ərzində Azərbaycanın sürətlə inkişaf etdiyini, həyata keçirilən tədbirlərin qlobal çağırışlara tam cavab verdiyini qeyd edib. Bildirib ki, artıq Azərbaycan Avropa İttifaqı ilə enerji sektoru ilə yanaşı, nəqliyyat sahəsində də uğurla əməkdaşlıq edir və bu sahədə təqdimatların keçirilməsi Azərbaycanın tranzit potensialının təşviqi, əlaqələrin inkişafı baxımından əhəmiyyətlidir.

Görüşdə Avropa İttifaqı-Azərbaycan Sazişi layihəsi və digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Sərmayənin yarısı xarici investisiyaların payına düşür

2017-ci ildə ölkə iqtisadiyyatına qoyulmuş 14,6 milyard dollar sərmayənin təxminən 50 faizi xarici investisiyaların payına düşür.

Ötən il Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub. Son 13 ildə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. Həmin şirkətlərin daha çox maraq göstərdikləri sahələr sənaye, tikinti, nəqliyyat, ticarət, turizm və xidmət sektorlarıdır.

Xarici şirkətlərin 32,1 faizi Türkiyəyə məxsusdur. Rusiya, Böyük Britaniya, ABŞ və Fransaya məxsus investisiyalı müəssisələrin sayı da az deyil. Koreya Respublikası, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətlərinin sayında son vaxtlar artım qeydə alınıb. Həmin şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə, qeyri-neft sənayesində podratçı, subpodratçı qismində də fəal iştirak edirlər.

# «Made in Azerbaijan» Moskvada...

◆ **Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində fəaliyyətə başlayan «Prodexpo 2018» XXV Beynəlxalq Ərzaq, İçki və Xammal Sərgisinin baş sponsoru «Made in Azerbaijan» brendidir.**

«Eksposentr» mərkəzində keçirilən sərgidə dünyanın 63 ölkəsindən, o cümlədən ABŞ, Böyük Britaniya, Argentina və s. 2000-dən çox şirkətin məhsulları nümayiş olunur. Ziyarətçilərə qeydiyyat zonasında sərginin baş sponsor ölkəsi - Azərbaycan haqqında ətraflı məlumat verilir. Ölkəmiz sərgidə ilk dəfə «Made in Azerbaijan» milli stendini təqdim edir.

Milli ornamentlərlə bəzədilmiş Azərbaycan pavilyonunda ölkəmizdə istehsal edilən, öz keyfiyyəti və rəqabətqabiliyyətliliyi ilə seçilən meyvə şirələri, müxtəlif növ şərablar, təbii mineral sular, qənnadı məmulatları, çay və sair məhsullar ziyarətçilərə təqdim olunur. Burada quraşdırılmış monitorlarda «Ekspo Baku 2025»in təbliğat materialları, Azərbaycanın görməli yerləri, təbiəti barədə videoçarxlar da nümayiş etdirilir.

# Yaponiya ilə əməkdaşlıq dərinləşdirilir

Yanvarın 31-də Yaponiyanın Kioto şəhər kənd təsərrüfatı kooperativlərinin prezidenti Yasuhiro Nakaqava Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyində olub. Görüş zamanı aqrar sahədə gələcək əməkdaşlıqla bağlı müzakirələr aparılıb.

Yasuhiro Nakaqava Kioto şəhərinin Yaponiyada tərəvəz istehsalı, qablaşdırılması və satışı üzrə ixtisaslaşdığını diqqətə çatdırıb, həmçinin Yaponiyada kooperativlərin yaranma tarixi, inkişaf istiqamətləri, formalaşması, maliyyə mənbələri barədə məlumat verib. Qonaq bu sahədə 3 əsas amilin - bank sistemi, sığorta, yeni texnologiya və avadanlıqların tətbiq olunmasının vacibliyini diqqətə çatdırıb. O, yüksək keyfiyyətli brend tərəvəz məhsulu istehsalı, saxlanması, qablaşdırılması və dünya bazarına çıxarılması texnologiyasının Azərbaycanda tətbiqinə dəstək veriləcəyini bildirib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Fevralın 5-də Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin rəsmi açılışı olub.

Fevralın 7-dən 9-dək Almaniyanın paytaxtı Berlində keçiriləcək «Fruit Logistica» meyvə-tərəvəz sərgisində Azərbaycan məhsulları nümayiş etdiriləcək.

«Fitch» beynəlxalq reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici və yerli valyutada reytinqi üzrə proqnozunu «neqativ»dən «stabil»ə yüksəldib.

Fevral 10-da «JW Marriott Absheron» hotelində «AzeriStudent»şirkətinin təşkil etdiyi təhsil sərgisi keçiriləcək.

Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunan «SOCAR Polymer»in polipropilen istehsalı qurğusu bu ilin iyun ayında istehsala başlayacaq.

Azərbaycanın təşəbbüsü, Türkiyə, Qazaxıstan və Gürcüstanın Çin Xalq Respublikasındakı səfirliklərinin təşkilatçılığı ilə Pekində «Bir kəmər, bir yol» təşəbbüsünün reallaşmasında Transxəzər Beynəlxalq Şərq-Qərb ticarət və nəqliyyat dəhlizinin rolu mövzusunda beynəlxalq konfrans keçirilib.


## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# «Bulud» texnologiyaları: istifadə qaydaları, üstünlükləri...

*Son zamanlar tez-tez eşitdiyimiz və qulağımızda qəribə səslənən ifadələrdən biri də «bulud» texnologiyalarıdır. Artıq dünyada kifayət qədər populyarlıq qazanan bu yeni texnologiyanın mahiyyəti nədən ibarətdir? Mövzunu «TuranBankın İnformasiya Texnologiyaları Departamentinin baş direktoru Bəxtiyar Məmmədov şərh edir.*



Müxtəlif müəssisələrin, yaxud fərdi şəxslərin hər hansı informasiyanın emalı, yadda saxlanması və ehtiyac olduqda istifadə edilməsi kimi tələbləri vardır. Hər bir müəssisə ayrıca olaraq texnoloji bir infrastruktur alır, server otaqları hazırlayır, bu otaqların təhlükəsizliyini təmin edir, soyutma sistemləri quraşdırır, proqram təminatları əldə edir, infrastrukturun idarə olunması üçün əməkdaşlar cəlb edir. Ayrı-ayrı şəxslər mobil telefonlarındakı fotoları, videoları, digər məlumatları uzun müddət saxlamaq üçün müxtəlif yaddaş qurğuları alırlar. Lakin bütün bu xidmətləri təklif edən ümumi bir güclü «Data mərkəz»in olması və həmin mərkəzin hər kəsə yalnız özünə lazım olduğu qədər texnoloji resurslar təqdim etməsi, istifadəçilərin isə internet və ya digər şəbəkələr üzərindən bu resurslardan istifadə etməsi daha səmərəli, daha davamlı və daha keyfiyyətli olmazdımı? Bu sual dünyanın nəhəng şirkətlərini də düşündürürdü və onun cavabının axtarışı nəticədə «bulud» texnologiyalarının yaranmasına və inkişafına gətirib çıxardı.

Hazırda «bulud» texnologiyaları müxtəlif formalarda təqdim edilir. Məsələn, «Data mərkəz»lər infrastruktur xidməti göstərərkən müəssisələrə ümumi infrastrukturdan müəyyən texnoloji resurslar təqdim edir və müəssisələr istifadə etdikləri resursa görə ödəniş etməli olurlar. Yaxud proqram xidməti təklif edərkən müəssisələrə, fərdi istifadəçilərə hər hansı proqram təminatını onların öz kömpüterlərində və ya mobil telefonlarında deyil, «bulud» üzərində təklif edirlər, istifadəçi isə həmin proqram təminatını öz kömpüterinə yükləmir və yalnız «bulud»a qoşularaq bu proqram təminatından istifadə edə bilir. Əksər smartfon istifadəçiləri hazırda «Google» «bulud» xidmətlərindən istifadə edirlər. Bu halda onlar məkandan və zamandan asılı olmayaraq, internet və ya digər rabitə şəbəkəsinin olduğu yerdə dayanıqlı xidmətdən istifadə etmək imkanı əldə edirlər. İstifadəçi hər hansı avadanlığı alarkən gələcəkdə daha böyük resursa tələbi olacağını düşünərək, nisbətən bahalı avadanlıq aldığı halda, «bulud» texnologiyalarından istifadə edərkən yalnız özünə həmin gün lazım olan qədər resurs alır və ödənişi də bu resurslara uyğun aparır.

**Xidmətdən istifadə edən şirkətlər və maliyyə müəssisələri üçün hüquqi normaların daha aydın şəkildə müəyyən olunmasına ehtiyac var**

«Bulud» xidmətləri üstünlüklər qazandırdığı kimi, müəyyən suallar və risklər də gətirib. İnformasiya təhlükəsizliyi, məxfilik, qanunvericiliklə uzlaşma tipli suallar tez-tez ortaya çıxır. Müxtəlif «bulud» xidmətləri zamanı texnoloji infrastrukturun imkanları ilə təhlükəsizlik məsələləri, müqavilələrlə məxfilik məsələləri tənzimlənmiş olsa da, risklər hər zaman qalır. Qanunvericiliyə gəldikdə isə, müxtəlif dövlətlər «bulud» texnologiyaları ilə bağlı qanunvericiliyi ildən-ilə təkmilləşdirirlər.

«Data mərkəz»in göstərdiyi xidmətlərin istehlakçılara izah edilməsi, xidmətin üstünlükləri ilə bağlı müzakirələrin aparılması çox əhəmiyyətlidir. Azərbaycanda «bulud» texnologiyalarının inkişafı üçün yaradılmış bu mərkəz növbəti illərdə texnoloji inkişafa təkan verəcək amillərdən biri olacaqdır. Tarix boyunca inkişaf hər zaman pillə-pillə baş verib. İlkin mərhələdə «Data mərkəz»in təqdim etdiyi xidmətlərin qiymətlərinin müəyyən xarici analoqlarından yüksək olması normaldır. Lakin mərkəzin xidmətlərindən istifadə edən şirkətlər artdıqca, təbii ki, qiymətlərin də aşağı enməsi baş verəcək. Bundan əlavə, qanunvericiliyin daha da təkmilləşdirilməsinə, «bulud» xidmətindən istifadə edən şirkətlər və maliyyə müəssisələri üçün hüquqi normaların daha aydın şəkildə müəyyən edilməsinə ehtiyac vardır.

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, zaman keçdikdə ölkə daxilində yerləşən «bulud» xidmətlərindən istifadənin artması labüddür. Ona görə də ölkəmizdə belə bir mərkəzin qurulmasını, bu xidmətlərin məhz Azərbaycan daxilində olan infrastruktur vasitəsilə göstərilməsini informasiya texnologiyaları sahəsinin ölkədə inkişafı istiqamətində növbəti əhəmiyyətli addım kimi qiymətləndirmək mümkündür.

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Maliyyə sanksiyaları ilə üzləşməmək üçün...

Ötən ildən toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu və s. fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği müəyyən edildi. Sabit vergi dedikdə, fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləği nəzərdə tutulur.

Yuxarıda qeyd edilən fəaliyyətlərlə məşğul olmaq istəyən fiziki şəxslər ya müvafiq xidmət mərkəzlərinə, ya da internet vasitəsilə müraciət etməklə «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Bu fəaliyyət üzrə vergi orqanına bəyannamə təqdim edilmir. Ödənilmiş vergi həmin qəbzin qüvvədə olduğu müddətdə, fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti dövrlərin vergiləri ilə əvəzləşdirilmir. Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduqda «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üçün ayrılıqda almalıdırlar.

Fəaliyyət növləri ilə işçi cəlb etmədən fərdi qaydada məşğul olan fiziki şəxs «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan fəaliyyət göstərərsə, ona maliyyə sanksiyası tətbiq edilə bilər. Təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, iki və daha çox hallarda həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi öhdəliklərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» əldə etməklə sadələşdirilmiş qaydada yerinə yetirən fiziki şəxslər nağd pul hesablaşmalarının aparılması zamanı alıcıya nəzarət-kassa aparatı çeki istisna olmaqla, ciddi hesabat blankı olan qəbz də təqdim etməlidirlər. Qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılması, alıcıya qəbzin verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərməklə verilməsinə görə də maliyyə sanksiyası ilə üzləşə bilərlər: təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və daha çox hallarda isə 1200 manat maliyyə sanksiyası tətbiq ediləcək.

Fərdi sahibkarların maliyyə sanksiyaları ilə üzləşməməsi məqsədilə Vergilər Nazirliyi maarifləndirmə tədbirlərinə xüsusi önəm verir. Ötən il sabit verginin ödəyicilərinin fəaliyyət növləri, tələb olunan sənədlər, zonalar üzrə ödənilməli olan vergi məbləğləri, izahlı materiallar və digər zəruri məlumatları özündə əks etdirən sənədlər toplusu hazırlanmış, Vergilər Nazirliyinin rəsmi internet saytında ayrıca bölmə yaradılaraq bütün zəruri məlumatlar həmin bölmədə yerləşdirilmişdir.

İl ərzində 3100 vergi ödəyicisi üzrə 9753 «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» alınmışdır. «Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması Qaydaları», eləcə də «Musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxslərin qeydiyyatı kitabı»nın forması, restoran və digər ictimai iaşə obyektlərinin sahibləri üçün «Yaddaş» kitabçası hazırlanmışdır.

**Aytən NƏBİYEVA**

## 2018-ci ilin fevral ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin fevral ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi 2018-ci ilin fevral ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin **fevral ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 1-ci rübü üzrə bəyannaməni cari ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edirlər).
- **Xüsusi notariusların** 2018-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **fevral ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (2018-ci ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci ilin 1-ci rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini fevral ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Ukrayna vergi ödənişləri reytinqində 41 pillə irəliləyib

Dünya Bankının 2018-ci il üçün «Biznesin aparılması» reytinqinə daxil olan vergi ödənişlərinin sadələşdirilməsi indikatoruna görə, Ukrayna keçən il qərarlaşdığı 84-cü yerdən 43-cü yerə yüksəlməyə nail olmuşdur. Ölkə bu nailiyyəti ödənişlərin şəffaflığının və asanlığının artırılması ilə bağlı əhəmiyyətli dəyişikliklər sayəsində əldə etmişdir. Mühüm tədbirlər arasında əlavə dəyər vergisinin qaytarılmasının onlayn rejimdə avtomatlaşdırılmış şəkildə aparılması sistemi də vardır: indiyədək tətbiq olunan sistem qapalı olduğuna görə korrupsiyaya şərait yaradırdı. Ukrayna internet üzərindən vergi ödənişlərinin sayını əsaslı şəkildə artırmışdır ki, bu da tranzaksiyaların daha sadə və şəffaf olmasını təmin edir.

Onu da qeyd edək ki, vergi ödənişi sahəsində ciddi irəliləyiş olsa da, Dünya Bankının ümumi reytinqində Ukraynanın mövqeyi cəmi dörd pillə irəliləmişdir: 190 ölkə arasında 76-cı yer (keçən il isə 80-ci yerdə idi). Hazırda Ukraynada fəaliyyət göstərən şirkətlər öz mənfəətlərinin 37 faizini vergilər şəklində dövlət büdcəsinə ödəyirlər. Avropa və Mərkəzi Asiya ölkələri üçünsə orta göstərici 33,1 faiz təşkil edir.

## Latviya Ukrayna təmsilçiliyinə nota göndərib

Latviya hökuməti adından Ukraynanın müvəqqəti işlər vəkili A.Podlyaka nota təqdim edilmişdir. Sənəd Ukraynanın Latviyanı vergilərin dərəcələrinin aşağı salındığı offşor ölkələrin siyahısına salmasına etiraz əlaməti olaraq tərtib edilmişdir. Latviyanın Xarici İşlər Nazirliyi Ukrayna hökumətinin bu qərarına etiraz etmişdir. Bildirilir ki, Latviyanın vergi qanunvericiliyində fəaliyyətə başlayan müəssisələr üçün məhdudiyyət və ya qeyri-rezidentlər üçün əlavə güzəştlər nəzərdə tutulmur. Ukrayna ekspertləri yenidən investiya qoyuluşu üçün təklif edilmiş sıfır vergi dərəcəsi şərtlərini başa düşməyiblər. Vergi sisteminin səhv yozumu belə bir qərarın verilməsinə gətirib çıxarmışdır. Əslində isə yenidən investisiya şəklində qoyulmuş mənfəət üzrə sıfır əmsalın mövcudluğu müəssisəni dividendlər üçün verginin ödənilməsindən azad etmir.

Qeyd edək ki, bundan əvvəl Ukraynanın müəyyənləşdirdiyi offşorlar siyahısında Estoniyanın da adı çəkilmişdi, lakin ölkə başçısının bəyanatı və dəqiqləşdirmələr sayəsində aydın oldu ki, bu ölkənin adının həmin siyahıya salınmasında yanlışlıq olmuşdur.

## «Airbnb» Fransada turistlərə aid vergi ödənişlərini ikiqat artıracaq

Daşınmaz əmlakın icarəsi sahəsində ixtisaslaşmış «Airbnb» internet platforması tərəfindən bildirilmişdir ki, Fransanın bütün şəhərlərində turistlərin yerləşdirilməsi üzrə 13,5 milyon avro məbləğində vergi ödəyəcək ki, bu da keçən il ödənilmiş məbləğdən iki dəfə artıqdır.

Bildirilmişdir ki, şirkət Fransada turistlərdən avtomatik vergi yığımının və veb-sayt üzərindən mənzillərin əvvəlcədən sifarişi üçün pul ödənişlərinin əhatə dairəsini bu il genişləndirərək 15 min bələdiyyəyə çatdıracaq və bununla da yerli idarəetmə orqanları üçün böyük maliyyə töhfəsi verən ilk internet platforması olacaq. Şirkətdən verilən məlumata görə, bu il «Airbnb» Paris şəhərinin bələdiyyəsinə daha çox turist vergisi köçürəcək - 6,9 milyon avro.

Keçən il «Airbnb» məlumat yaymışdı ki, 2017-ci ilin may ayının 1-dək şirkət bütün dünya üzrə 275 yurisdiksiya ilə müqavilə imzalayaraq ümumilikdə 240 milyon dollardan artıq turist vergisi və istehlak vergisi köçürüb.

## Tütün məmulatlarına vergini tənzimləyən direktivə yenidən baxılacaq

Avropa Komissiyası 2016-cı ildə apardığı icmal baxışdan sonra tütün məmulatlarının vergiyə cəlb edilməsi ilə bağlı Avropa İttifaqı (Aİ) Direktivində dəyişiklik aparılmasını tövsiyə etmişdi. İcmal baxış Aİ-yə üzv ölkələrin maliyyə nazirlərinin görüşündən sonra başlanmışdı - Komissiya Aİ-nin hazır tütün məhsullarına aksizin strukturu və dərəcələri ilə bağlı 21 iyul 2011-ci il tarixli Direktivinə gələcəkdə yenidən baxmağı qərara almışdı.

Avropa Komissiyası yeni qərarını 2018-ci il yanvarın 12-də yaydığı hesabatda açıqlamışdır. Sənədə əsasən, 2016-cı ildəki icmalda gələcək təkmilləşdirmə üçün Aİ-də tütün məmulatlarının vergiyə cəlb edilməsinin altı sahəsi nəzərdə tutulmuşdu:

- elektron siqaretlər üçün uyğunlaşdırılmış vergi qaydalarının tətbiq edilməsi;
- xam tütünün satışına nəzarətin təkmilləşdirilməsi;
- siqar və siqarella üçün vergi dərəcələrinin siqaretə tətbiq olunan vergi dərəcəsi ilə bərabərləşdirilməsi;
- daha yüksək vergi dərəcələri qoyulmuş hazır siqaretlərlə müqayisədə xam tütünün vergiyə cəlb olunmasına yenidən baxılması;
- tütün məhsullarının qanunsuz satışına qarşı mübarizə tədbirlərinin görülməsi;
- Aİ üzrə minimal aksiz dərəcələrinin tətbiq edilməsi.

Komissiya tərəfindən bildirilmişdir ki, bu məsələlər, xüsusən də minimal aksiz dərəcəsinin tətbiqi bu il yenidən nəzərdən keçiriləcək.

## Futbol bazarında maliyyə köpüyü şişdikcə şişir



### Çin hökuməti bunun qarşısını almağın yolunu verginin tənzimlənməsində görür

Bu gün transfer bazarında müşahidə olunan göstəricilər futbol sahəsində artmaqda olan inflyasiyanın miqyasını əks etdirir və başqa sektorlarda olduğu kimi, bu sektorda da maliyyə köpüyünün şişdiyini göstərir. Bu bazarın yeni bir tarazlıq səviyyəsinə doğru yön aldığı artıq aydın nəzərə çarpmaqdadır.

«Football Observatory» nəşrinin son araşdırmasına əsasən, hələ yaşları 21-ə çatmamış dörd gənc futbolçunun hər birinə qoyulan qiymətin məbləği 120 milyon avrodan yuxarıdır. 2016-2017-ci illərin əhatə etdiyi mövsümə qədər heç vaxt futbolçular, özü də hələ «ulduz» səviyyəsinə yüksəlməmiş gənclər üçün belə bir məbləğ ödənilməmişdi. Son iki il ərzində transfer bazarında futbolçuların heç də həmişə onların istedadı ilə düz mütənasib olmayan qiymətlərində ağlasığmaz sıçrayışlar baş verib.

Keçən yay Fransanın «Pari Sen-Jermen» klubu İspaniya «Barselona»sından aldığı Neymar üçün 222 milyon avro ödəməklə futbol bazarında inqilab etmiş oldu. Bununla braziliyalı futbolçu dünyanın ən bahalı idmançısı olmaq şərəfinə nail oldu. Bundan əlavə, 180 milyon avro məbləğində ödənişi gələn futbol mövsümünə qədər təxirə salmaq üçün «Monako» klubu ilə gənc futbolçu Klian Mbappe ilə bağlı müqavilə imzalandı. Bu əməliyyat digər futbolçuların da qiymətlərində sıçrayış yaratdı və bunun nəticəsində futbol bazarında güclü inflyasiya yelləri əsməyə başladı. Mütəxəssislərin rəyinə görə, son iki ildə futbol dünyası inflyasiyanın pəncəsindədir.

2016-2017-ci illəri əhatə edən mövsümdə Almaniyanın «Borussiya» Dortmund klubu Usman Dembele üçün 15 milyon avro ödəmişdi, bir ildən sonra isə bu futbolçunun qiymətində 600 faizlik artım qeydə alındı və o, «Barslona»ya 105 milyon avroya satıldı. Bundan əlavə, onun üçün 40 milyon avrodan çox bonus ödənişi də nəzərdə tutulmuşdur. Dembele yaşı 21-ə çatmamış dörd gənc futbolçudan biridir: onların hərəsi üçün Beynəlxalq İdman Araşdırmaları Mərkəzinin (CIES) müəyyənləşdirdiyi qiymət 120 milyon avrodan çoxdur.

Futbol bazarındakı köpük 2016-cı ilin yayından inanılmaz tərzdə şişməyə başlamışdır. Ondan bir il əvvəl «Tottenhem» Dele Alli üçün 6,6 milyon, «Mançester Siti» isə Lera Sane üçün 50 milyon avro ödəmişdi. Hər iki futbolçunun o vaxt 19 yaşı vardı. Bu gün CIES Dele Alli üçün 180 milyon avro, Lera Sane üçünsə 124 milyon avro qiymət qoyub. «Transfermarket»in müəyyənləşdirdiyi qiymət isə bunlardan xeyli aşağıdır: müvafiq olaraq 60 və 45 milyon avro. Digər məsələlərlə yanaşı, transfer yenilikləri üzrə ixtisaslaşmış portalın yazdığına görə, iki ilə yarımmüdafiçi Şporun qiymətində 809 faiz artım olduğu halda, Sanenin qiyməti iki il əvvəl «Mançestr Siti»nin ödədiyi məbləğə uyğundur.

Yeri gəlmişkən, Çin hökuməti futbolçuların alınmasında və satılmasında əsası olmayan xərclərin qarşısını kəsmək üçün radikal addım atıb: bu ölkədə xarici transferlər və bahalı yerli oyunçular üçün 100 faizlik dərəcə ilə vergi tətbiq edilir. Bu addımın atılması həm də daxili futbol bazarının inkişaf etdirilməsi baxımından proteksionist - himayəedici səciyyə daşıyır.

## Səudiyyə Ərəbistanı ƏDV üzrə vergi öhdəlikləri müəyyənləşdirib

Ölkənin vergi agentliyinin vergi ödəyicilərinə göndərdiyi bildirişdə göstərilmişdir ki, yeni tətbiq olunan əlavə dəyər vergisi üçün qeydiyyata alınmış, illik gəliri 40 milyon rialdan (10,6 milyon ABŞ dolları) artıq olan müəssisələrin hamısı hər ay vergi bəyannaməsi təqdim etməlidir.

Beləliklə, bu kateqoriyaya aid edilən müəssisələr yanvar ayına aid bəyannamələrini fevralın sonuna qədər vergi orqanlarına çatdırmalıdır. İllik dövriyyəsi 40 milyon rialdan az olan müəssisələr isə bəyannamələrini rüblük əsasda - üç aydan bir verəcəklər. Başqa sözlə, bu kateqoriyaya aid vergi ödəyiciləri ilk bəyannamələrini 2018-ci ilin aprel ayının sonuna qədər təqdim etməlidirlər.

Vergi agentliyinin məlumatında bəyannamələrin vaxtında verilməməsi ilə bağlı qanunda nəzərdə tutulan cərimələr barədə ayrıca xəbərdarlıq edilmişdir: cərimənin məbləği ödənilməli olan verginin məbləğinin 5 faizindən 25 faizinədək müəyyənləşdirilmişdir.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Almaniyada kommuna; 2.Şamaxı rayonunda kənd. Qadın adı; 3.Oksidlər sinfinə aid dəyərli mineral daş. Qədim dövrlərdə ləl adlanırdı; 4.Hindistanın şərqində ştat; 5.Uran, titanium və sirkoniumu kəşf edən alman kimyaçı; 6.Arı yuvası; 7.Dünyanın aparıcı enerji şirkətlərindən biri; 13.Fransada nüfuzlu kino festivalı keçirilən şəhər; 15.Sovet kino və teatr artisti, rejissor, ssenarist, estrada müğənnisi. «Brilyant əl», «İtalyanların Rusiyada qeyri-adi macəraları» və s. filmlərdə çəkilmişdir; 16.Alkanlar sinfindən doymuş karbohidrogen; 17.Alman dramaturqu, şairi və nasiri. XIX əsr alman ədəbiyyatında görkəmli yer tutan sənətkar hesab edilir; 18.SSRİ-də nəşr olunmuş populyar qəzet, Kommunist Partiyasının əsas mətbuat orqanı; 20.Borc alınan pul və s. müqabilində təminat üçün verilən əmlak; 21.Alış-veriş yeri. Həftənin günü.

**Soldan sağa:** 1.Əldə fırlatdıqda tez-tez dəyişən, rəngli naxışlar göstərən, boruşəkilli optik cihaz (oyuncaq); 8.Uduşları dərhal ödənilən lotereya; 9.Müəssisənin sahib olduğu bütün maddi mülkiyyəti əhatə edən anlayış, mühasibat termini; 10.Neftin fraksiyası; 11.Aralıq dənizi hövzəsində cənub və cənub-şərq istiqamətində əsən güclü, isti külək; 12.Üst paltar üçün naxışlı yun parça; 14.İdarə və müəssisələrin rəsmi nişanı; 19.Evkommiya cinsinə aid bitki növü (ağac); 21.1490-1574-cü illərdə Hindistanda hakimiyyətdə olmuş səltənət; 22.Fransız əsilli postimpressionist rəssam; 23.Rusiya və Sovet kinorejissoru, ssenarist, aktyor, prodüser və şairi. «Həmişə təmizlikdə», «İşdə məhəbbət macərası», «Qaraj» və s. filmlərinin rejissoru; 24.Assortiment, çeşid; 25.Birjada faktiki vəziyyətdən asılı olaraq qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin, məzənnələrinin müəyyən edilməsi.



*«Brilyant əl» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nəsibə *(Zeynalova)*; 2.Mustafa; 3.Zaman; 4.Arnold *(Şvartsenegger)*; 5.İmandra; 6.Alibi; 7.Türkan *(Şoray)*; 13.Lego; 15.Debüssi *(Klod)*; 16.Fosfor; 17.Ankara (döyüşü); 18.Medium; 20.Sekta; 21.Draje. **Soldan sağa:** 1.Numizmatika; 8.Susuman; 9.Aqiar; 10.Braun; 11.Lüdmila *(Qurçenko)*; 12.Vafli; 14.Qayda; 19.Oksigen; 21.Dübre; 22.Faks; 23.Sarabski *(Hüseynqulu)*; 24.Ria; 25.Planerizm.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Boks Olimpiya Oyunlarının proqramından çıxarıla bilər

**Beynəlxalq Olimpiya Komitəsinin (BOK) rəhbəri Tomas Bax bildirib ki, BOK Beynəlxalq Həvəskar Boks Assosiasiyasına ünvanlanan ödənişləri dayandırır və 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarının proqramına boksun daxil edilib-edilməməsi məsələsinə yenidən baxmaq hüququnu özündə saxlayır.**



Tomas Bax bu sözləri BOK-un İcraiyyə Komitəsinin iclasının yekunlarına həsr edilmiş mətbuat konfransında deyib: «İcraiyyə Komitəsi federasiyanın (AIBA) idarəetmə sistemində təhqiqat başlanmasını təsdiq edir. BOK bu federasiyaya ünvanlanan ödənişləri dayandırıb və zəruri əməkdaşlıqdan başqa, bütün əlaqələri dondurub».

Xatırladaq ki, 2017-ci il noyabrın əvvəlində AIBA İcraiyyə Komitəsi Çinq-Kuo Vunun bu təşkilatın prezidenti vəzifəsindən müvəqqəti kənarlaşdırılması barədə qərar qəbul edib. Ona qarşı maliyyə israfçılığı da daxil olmaqla bir sıra intizam xarakterli ittihamlar irəli sürülüb. 11 il AIBA-ya rəhbərlik etmiş bu məmur noyabrın axırlarında təşkilatın rəhbəri vəzifəsindən istefa verib. Bundan sonra prezident vəzifəsini müvəqqəti olaraq AIBA-nın vitse-prezidenti Franko Falçinelli icra edib, bu il yanvarın sonunda isə Qafur Raximov AIBA-nın prezidenti vəzifəsinin müvəqqəti icraçısı təyin edilib.

Tomas Bax qeyd edib ki, İcraiyyə Komitəsi aprelin 30-dan gec olmayaraq AIBA-dan yeni məruzə gözləyir: «Biz bu problemləri hələ dekabr ayında görmüşdük, amma onlara dair izahat verilmədi. Bu, daxili qərarlar proseduruna aiddir. Rəhbər işçilərin təyin edilməsi və seçilməsi ilə bağlı problemlər hər kəsə məlumdur. Federasiyanın yeni müvəqqəti prezidenti ilə bağlı, o cümlədən maliyyə məsələləri ilə əlaqədar problemlər də var. Biz bu federasiyada dopinqə qarşı mübarizə sahəsində heç bir irəliləyiş görmədik».

# Dünya üzrə ən güclü ikinci şahmatçı



Beynəlxalq Şahmat Federasiyası (FİDE) 2018-ci ilin yeni reytinq siyahısını açıqlayıb. Azərbaycanlı şahmatçı, beynəlxalq dərəcəli qrossmeyster Şəhriyar Məmmədyarov reytinq cədvəlində ikinci yeri tutub. O, 2018-ci il yanvarın 1-nə olan vəziyyətə görə, mövqeyini yaxşılaşdıraraq üçüncü yerdən ikinci pilləyə yüksəlib. Şahmatçımız FİDE-nin reytinq siyahısında öz əmsalını 10 xal artıraraq 2814 xala çatdırıb.

FİDE-nin məlumatına görə, Norveçdən olan dünya çempionu Maqnus Karlsen 2843 xalla dünyanın ən güclü şahmatçılarının siyahısında liderliyini davam etdirir. Üçüncü yeri isə keçmiş dünya çempionu, rusiyalı Vladimir Kramnik tutur (2800 xal).

# Ənənəvi olaraq ən yaxşılar sırasında...

Azərbaycan Gimnastika Federasiyası (AGF) dörd il ardıcıl olaraq Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən «Mükafatlandırılan federasiyalar»ın siyahısına daxil olub. AGF-nin saytı xəbər verir ki, federasiyamızın 2017-ci il ərzində gimnastikanın üç növü üzrə dünya kubokları, FIG-nin bədii gimnastika üzrə qitələrarası, beynəlxalq, həmçinin kişi idman gimnastikası üzrə beynəlxalq hakimlik kurslarına və FIG Şura iclasına yüksək səviyyədə ev sahibliyi etməsi, bunlarla yanaşı FIG-nin tanıdığı gimnastikanın altı növü üzrə yarışlarda intizamlı şəkildə qeydiyyatdan keçərək aktiv iştirakı beynəlxalq qurum tərəfindən dəyərləndirilib. Bütün bu göstəricilərə görə, AGF ilk pillədə qərarlaşıb. Xatırladaq ki, özündə 148 federasiyanı birləşdirən FIG-nin reytinq siyahısında Azərbaycan Gimnastika Federasiyası stabil olaraq 2014-cü, 2015-ci və 2016-cı illərdə 10 ən güclü federasiyaların sırasında yer alıb.

# İdmançılarımızdan tarixi nəticə




Azərbaycan karateçiləri Rusiyanın Soçi şəhərində yeniyetmələr arasında 45-ci, 21 yaşadək gənclərin 10-cu Avropa çempionatında tarixi nəticə göstəriblər. Azərbaycan Milli Karate Federasiyasından verilən məlumata görə, qazanılan altı medaldan dördü qızıl, biri gümüş, biri isə bürünc əyarlıdır.

Yarışın ilk günü Tale Yaqubov (-63 kq, şəxsi məşqçisi Cahangir Babayev) və Polina Hurenko (-47 kq, şəxsi məşqçisi Denis Morozov), ertəsi gün 16-18 yaşlı gənclər arasında Hümmət Baxşəliyev (-61 kq, şəxsi məşqçisi Vüqar Kərimov) qızıl medala sahib olub. Mədinə Sadıxova (-48 kq, şəxsi məşqçisi Seymur Xudaverdiyev) isə gümüş medala layiq görülüb. Roman Heydərov (kata), Aytac Əliyeva (-55 kq) və Fəridə Əliyeva (+67 kq) təsəlliverici görüşlərə qatılmaq imkanı əldə etsə də nəticədə medalsız qalıblar. Yarışın son günü 21 yaşadək gənclərdən Hüseyn Əliyev (-67 kq, şəxsi məşqçisi Elnur Həsənov) qitə çempionu olub. Murad Hacızadə (+84 kq, şəxsi məşqçisi Rafael Məmmədov) isə ardıcılı ikinci dəfə avropa üçüncülüyünü qazanıb.

Bununla da 44 ölkədən 956 idmançının iştirak etdiyi Avropa çempionatında Azərbaycan 5-ci yeri tutub. Qitə çempionatında idmançılarımızla birlikdə olan Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov və Baş katib MirHəsən Seyidov federasiyanın tarixində ilk olan bu nəticəni yüksək qiymətləndiriblər. Qeyd olunub ki, yeniyetmə karateçilərin bu ilin yayında Argentinanın paytaxtı Buenos Ayresdə Yeniyetmələrin Olimpiadasına qatılmaq üçün hazırlıqları davam etdiriləcək.

## mozaika

cəmiyyət



# Üzən avtomobil

«Toyota» şirkətinin keçmiş əməkdaşı Xideo Surumaki daşqın zamanı sahibinə xilas olmağa kömək edəcək üzən avtomobil yaradıb. O, «Toyota»dan ayrıldıqdan sonra iki il ərzində üzə bilən, kiçik «Fomm» elektrik avtomobilinin prototipini hazırlayıb, indi isə elektrik avtomobilinin saatda 80-160 kilometrə qədər gedə biləcək dördüncü prototipi üzərində işləyir.

Avtomobilin dörd oturacağının hər birinin altında dəyişilə bilən batareyalar yerləşdirilib. Bu yolla mühəndislər suda tarazlıq problemini həll ediblər. Maşın suyadavamlı mühərrikin köməyi ilə üzür, xüsusi konstruksiyalı təkərlərin sayəsində isə dönə bilir.

X.Surumaki avtomobilin istehsalı ilə bağlı Tailanddakı zavodla razılaşıb. Bu zavod ildə on minə qədər üzən avtomobil istehsal etməyə hazırlaşır.

faydalı

# Çili bibəri

Qırmızı acı bibər uzun illərdir ki, Amerika hindularının qida rasionuna daxildir. Məşhur səyyah Xristofor Kolumb XV əsrdə Vest-Hində ikinci ekspedisiyası zamanı acı bibərin dadına baxaraq onu «chilli» adlandırıb. Qədim atsek dilindən tərcümədə «qırmızı» anlamına gələ bu bitkini Kolumb Amerikaya gətirib və həmin bibər növü oradan bütün dünyaya yayılıb.



Acılıq dərəcəsinə görə Çili bibərinin bir-birindən fərqlənən bir neçə növü var. Ona acı dad verən isə tərkibindəki kapsaisin alkoloididir. Kapsaisin bibərin içərisindəki ağ hissədə və toxumlarda daha çox olur.

Həmin maddə patogen mikroorqanizmlərin inkişafının qarşısını alır, immun sistemini möhkəmləndirir, qrip və zökəm kimi infeksion xəstəliklərə qarşı orqanizmin dözümlülüyünü artırır, mədədə iltihabi prosesə və xoraya səbəb olan helicobacter pylori bakteriyalarına öldürücü təsir göstərir. Həmçinin kapsaisin çox güclü antioksidantdır, sərbəst radikalları neytrallaşdıraraq onların orqanizmdən xaric olmasını sürətləndirir. Çili bibərinin tərkibində olan həmin maddə selikli qişadakı ağrı reseptorlarını qıcıqlandırır. Beyinə ötürülən impulslara cavab olaraq orqanizmdə tər ifrazını artıran, ağrıları azaldan və əhval-ruhiyyəni yaxşılaşdıran endorfinlərin sintezi çoxalır. Acı bibər ekstraktından farmakologiyada analgetik preparatlar və plastrların hazırlanmasında istifadə edilir.

Kapsaisin orqanizmdə yağların oksidləşmə prosesini aktivləşdirir, temperaturu artırır, mübadilə prosesini sürətləndirir, dəri altında toplanaraq «portağal qabığı» görüntüsü verən artıq piy toxumasının parçalanmasını asanlaşdırır. Acı bibər orqanizmdə azot oksidinin sintezini artırır, qan damarlarına genişləndirici təsir edərək arterial təzyiqi azaldır, iltihabi proseslərin qarşısını alaraq damarqoruyucu təsir göstərir, disfunksiyaların qarşısını alır.

Çili bibərinin tərkibində olan kapsaisin şəkərli diabet xəstəliyi olanlarda mədəaltı vəzin qan dövranını yaxşılaşdıraraq insulin sintezini stimulə edir, qanda şəkərin və aşağı sıxlıqlı lipoproteinlərin səviyyəsini azaldır.

mədəniyyət

# «Yanardağ»ın sorağı İtaliya mediasında...



İtaliyanın «askanews» xəbər portalında «Azərbaycan. İpək Yolunun üzərində italyanca düşünən muzey» sərlövhəli məqalə dərc olunub. Yazıda italiyalı məşhur səyyah Marko Polonun əsərlərində dünyada öz-özünə yanan mifik bir yerin mövcudluğu barədə məlumat verdiyi və həmin yerin Azərbaycanda yerləşən «Yanardağ» olduğu bildirilir. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin «Yanardağ» qoruğunun yenidən qurulması barədə tapşırıq verdiyi diqqətə çatdırılır, həmçinin azərbaycanlı ekspertlərin italiyalılarla birgə hazırladığı «Enerji muzeyi» adlanan layihədən bəhs olunur.

Yazıda layihənin «Yanardağ» Enerji muzeyi-Alov teatrı» adlandırılmasının ərazidə təkcə öz-özünə yanan ocaqların mövcudluğu ilə bağlı deyil, həmçinin Azərbaycanın təbii qaz yataqları ilə zəngin olmasından qaynaqlandığı bildirilir, layihədə italiyalı memar Laura Perettinin də iştirak etdiyi diqqətə çatdırılır və onun fikirlərinə istinad olunur. Memar L.Peretti «Yanardağ» layihəsinin təkcə bu ərazinin deyil, bütövlükdə Azərbaycanın inkişaf etdirilməsi arzusundan qaynaqlandığını bildirir. O, layihənin təkcə yeni muzey kimi deyil, həmçinin Landşaft Rəsədxanası, bütün enerji növlərinə aid Təhsil və Tədqiqat Mərkəzi kimi fəaliyyət göstərərək, ərazinin tarixi və landşaftı barədə mühüm biliklər verəcəyini vurğulayır. «Yanardağ»ı gecələr alov saçan muzey və nadir landşafta malik yaşıl vadi adlandıran italiyalı memar layihənin Azərbaycanın tarixi, eyni zamanda, enerji ehtiyatları haqqında məlumat verən ən müasir multimedial və interaktiv layihə olduğunu və onun yerləşdiyi ərazidə turizmin inkişafına töhfə verəcəyini qeyd edir.

Məqalədə İtaliya və Azərbaycan İpək Yolu üzərində yerləşən və mədəni cəhətdən bir-biri ilə bağlı ölkələr kimi xarakterizə edilir, həmçinin İtaliyanı Azərbaycan ilə birləşdirəcək digər amil - Trans-Adriatik boru kəməri (TAP) haqqında da danışılır.

İtaliyanın müxtəlif kütləvi informasiya vasitələrinin marağına səbəb olan məqalə ölkənin nüfuzlu xəbər saytlarından olan «Prealpina», «Notizie Tiscali», «Notizie Yahoo» tərəfindən də dərc olunub.

maraqlı

# Güzgü ilə işıqlandırılan kənd



İtaliyanın Viqanello kəndinin cəmi 200 sakini var. Kəndin fərqli cəhəti isə onun böyük güzgü vasitəsilə işıqlandırılmasıdır. Alp dağları ilə əhatə olunan kənd dərədə yerləşdiyindən, buraya noyabrın ortalarından fevralın əvvəlinədək günəş şüaları düşmür. Kənd sakinləri problemin həlli yolunu nəhəng güzgünün köməyilə günəş şüasını əks etdirməkdə görüblər. Artıq onlar hətta qış aylarında günəş işığı və istiliyindən həzz almağa başlayıblar.

Təqribən 40 kvadratmetr sahəsi olan güzgü kəndin 870 metr hündürlükdə quraşdırılıb. Bundan əlavə, güzgü kompüterlə təchiz olunub ki, bu da günəşin hərəkət istiqamətini müəyyənləşdirmək imkanı yaradır. Layihənin dəyəri 100 min avrodur.

**Müdriklər deyib ki...**



***«İşləmək bizi üç böyük bəladan: avaralıqdan, eyibdən və ehtiyacdan qurtarır».***

*Volter (1694-1778)*